www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 avqust 2014-cü il Çərşənbə axşamı № 213 (5922) Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıda dəhşət; özünü ağzından güllələdi

yazısı səh.2-də

**Gündəm**

### Ankara -İrəvan... - "Futbol diplomatiyası" qayıdır? - təhlil



Ərdoğanın inauqurasiyasına təşrif buyuracaq Nalbəndyan mühüm bir suala cavabla ölkəsinə dönməlidir; ABŞ-ın sponsorluq elədiyi "Yol xəritəsi"nə avqustun 28-də start verilə bilər; Azərbaycanı tədbirdə spikerin təmsil eləməsi təsadüfdürmü?..

yazısı səh.8-də

### Bakıdakı "Ebola palataları"ndan reportaj

yazısı səh.14-də

### İvanovka susuz qalıb

**"Nikitin" kolxozunun sədri:** "Maşınlarla su gətirməkdən təngə gəlmişik"

yazısı səh.15-də

### Hakimiyyət 2015 seçkilərinə hazırlaşır

Siyasətçilər iqtidarın son davranışlarının arxasındakı məqamları açıqladılar

yazısı səh.4-də

### Bakıda ana körpəsi ilə küçədə gecələyir

yazısı səh.15-də

### Pərviz Həşimli ailəsi ilə açıq görüş istəyir

yazısı səh.4-də

### Ferquson olayları ABŞ hökumətini qınaq obyektinə çevirib

yazısı səh.13-də

### Vətəndaş iddia edir, nazirliksə təkzib...

yazısı səh.12-də

### İŞİD-in yeni haram siyahısı

Turşu, quru yemiş və sirkə də haram elan edildi

yazısı səh.2-də

*Vahid Məhərrəmov:*

### "Azərbaycanda yaxın aylarda kəskin qiymət artımı gözlənilir"

yazısı səh.12-də

### İlqar Nəsibov olayının arxasındakı sirr pərdəsi

Naxçıvandakı mənbə danışır; "Biz İlqara deyirdik ki, Fəridi yanından uzaqlaşdır..."

yazısı səh.3-də

## Rusiya anti-azərbaycançı şəbəkəni yenidən təşkilatlandırır

# ABBAS ABBASOV KREMLİN YENİ PROJESİNDƏ - özəl xəbərlər

Baş nazirin sabiq 1-ci müavini Moskvanın təhriki ilə yenidən ölkəmiz əleyhinə fəaliyyətə start vermək ərəfəsindədir; qayınanası düşmən millətdən olan birinin rusların dəstəyi ilə iqtidara gəlməsi Azərbaycana nə vəd edir



yazısı səh.5-də

## Qobustan həbsxanasında dustaqlar özlərini doğradılar

Məhkumlar yeni rəisin qaydalarına etiraz olaraq intihara cəhd ediblər; şok təfərrüatlar var

yazısı səh.15-də



*Rauf Qurbanov:*

### "Hüquq müdafiəçisi niyə Amerikadan maliyyə dəstəyi almalıdır?"

yazısı səh.10-da



### Bu gün Mehriban Əliyevanın ad günüdür

yazısı səh.2-də



*Ərəstun Oruclu:*

### "Avropa Şurası oyuncaq bir qurumdur, çoxdan öz əhəmiyyətini itirib"

yazısı səh.8-də

YENİ MÜSAVAT
N 213 (5922) 26 avqust 2014



## Bu gün Mehriban Əliyevanın ad günüdür

**Bu gün Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın ad günüdür.**

M.Əliyeva Bakıda məşhur ailədə anadan olub. Atası Milli Elmlər Akademiyasının akademiki, fizika-riyaziyyat elmləri doktoru, professor, Milli Aviasiya Akademiyasının rektoru Arif Mircəlal oğlu Paşayev, anası şərqşünas alim, filologiya elmləri doktoru, professor, AMEA Şərqşünaslıq İnstitutunun direktoru olmuş, ərəb ədəbiyyatı sahəsində mütəxəssis Aida Nəsir qızı İmanquliyevadır. M.Əliyeva 1982-ci ildə Bakıda 23 saylı orta məktəbi qızıl medalla bitirib, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə işi fakültəsinə daxil olub. II kursdan təhsilini İ.M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunda davam etdirib, 1988-ci ildə bu institutu əlaçı diplomu ilə bitirib. 1988-92-ci illərdə Moskva Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləyib. 90-cı illərin ortalarında M.Əliyeva Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaradıb. Ölkənin birinci xanımı indiyədək bu fonda rəhbərlik edir. Fond Azərbaycan mədəniyyətinin geniş təbliği məqsədilə üç dildə (Azərbaycan, ingilis, rus) "Azərbaycan-İRS" jurnalını nəşr etdirir.

M.Əliyeva Heydər Əliyev Fonduna onun açılmasından - 10 may 2004-cü ildən bu günədək rəhbərlik edir. O, 2005-ci ildə fəlsəfə elmləri namizədi elmi dərəcəsi alıb. Həmin il Milli Məclisə keçirilən seçkilərdə xanım Əliyeva parlamentə deputat seçilib. Mehriban xanımın Leyla və Arzu adında iki qızı, Heydər adında oğlu, üç nəvəsi var.

❑ "Yeni Müsavat"

## Bakıda dəhşət; özünü ağzından güllələdi



**Bakıda dəhşətli intihar hadisəsi baş verib. Lent.az-ın verdiyi məlumata görə, hadisə Qaradağ rayonunda baş verib. Belə ki, Korgöz qəsəbəsində 1979-cu il təvəllüdlü Məcidov Mürsəl Zakir oğlu özünü güllələyərək intihar edib. 35 yaşlı kişi ov tüfənginin lüləsini ağzına salaraq atəş açıb. O, hadisə yerindəcə keçinib.**

İntiharın səbəbi məlum deyil.

Faktla bağlı cinayət işi açılıb, araşdırmalar aparılır.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41


# Məhbusların müdafiəsi məsələsində ikitirəlik

## İqbal Ağazadə: "Hələlik müdafiə dağınıq və bir qədər də bəyanatdan o tərəfə keçməyən səviyyədədir"

**Son vaxtlar həbs olunan və təzyiqə məruz qalan vətəndaş cəmiyyəti nümayəndələrinin müdafiəsi ilə bağlı iki müdafiə komitəsi (Birləşmiş Hüquq Müdafiə Mərkəzi və Siyasi Məhbusları Müdafiə Komitəsi) formalaşdırılsa da, onların fəaliyyətində nəzərəçarpacaq effektivlik müşahidə edilmir.**



**Birləşmiş Hüquq Müdafiə Mərkəzinin üzvü, Ümid Partiyasının sədri İqbal Ağazadə** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, müdafiə işini təkmilləşdirmək üçün sistemləşdirmək lazımdır. Sistemləşərkən artıq daha dəqiq addımlar atmaq olar: "Hələlik müdafiə dağınıq və bir qədər də bəyanatdan o tərəfə keçməyən səviyyədədir. Güman edirəm ki, siyasi partiyalar yığışıbsa, artıq bütün parametrləri müzakirə etmək olar. Bütün parametrlər üzrə də hərəkət etmək mümkündür. Daha dəqiq nələri etməyin mümkünlüyünə gəlincə, bu, artıq hər kəsin ümumi yanaşa biləcəyi məsələdir, təkcə bizim təkliflərimizlə olan deyil. İşin xeyrinə olan addımları birgə düşünmək lazımdır".

**İki müdafiə komitəsini birləşdirməyin effektivliyi artıra biləcəyi ilə bağlı deyilənlərə gəlincə, İ.Ağazadə dedi ki, arzu olunan şəxslər bir yerdə olur. Kimlərsə kimisə arzu etmirsə zorla birləşdirməyin effekti olmaz:** "Başqı ilə nəyisə etmək mümkün deyil. Masa arxasında əyləşmək hər kəsin haqqıdır. Biz bizlə olacaq adamlarla bir yerdə hüququ pozulanların haqqını müdafiə etməyə hazırıq. Kimin bununla bağlı problemi var, öz işidir".

**Birləşmiş Hüquq Müdafiə Mərkəzinin üzvü, ADP sədri Sərdar Cəlaloğlu isə APA-ya deyib ki, AXCP-nin Birləşmiş Hüquq Müdafiə Mərkəzindən intriqa kimi istifadəsinin qarşısını almaq və ictimai rəydə çaşqınlıq yaratmamaq məqsədilə qurumun adının dəyişdirilməsini təklif edib:** "Nəzərə aldıq ki, bu təklif növbəti toplantıda müzakirə olunsun. Sonuncu toplantıda qurumun buraxılmasını təklif etsəm də, məsələyə aydınlıq gətirildikdən sonra bu fikirdən daşındım. Məlum oldu ki, bizim qurum Milli Şuranın yaratdığı Müdafiə Komitəsindən əvvəl yaradılıb. Onlar görəndə ki, biz belə bir qurum yaratmışıq, təcili toplantı keçirərək, Müdafiə Komitəsi yaradıblar. Bu baxımdan mərkəzin Milli Şuranın qurumuna alternativ olaraq yaradıldığı barədə məlumatların əsassız olduğu sübut olundu. Əksinə, onların bizim quruma alternativ yaratdığı məlum oldu. Mən çalışacağam ki, burada Milli Şuranın həyata keçirdiyi siyasətlə bizim heç bir oxşar tərəflərimiz olmasın".

❑ Etibar SEYİDAĞA

## Xalq artistinin oğlu reanimasiyaya yerləşdirildi

**Xalq artisti Nuriyyə Əhmədovanın oğlu xəstəxanaya yerləşdirilib. ANS PRESS-in məlumatına görə, İslamzadə Əli Xanlar oğlu Sabunçu rayon 3 saylı Kliniki Xəstəxananın Terapiya şöbəsində müalicə alırdı.**

Yarım ildir ağciyər və ürək çatışmazlığından əziyyət çəkən 37 yaşlı Əlinin vəziyyəti kəskinləşdiyindən reanimasiyaya yerləşdirilib.

Nuriyyə Əhmədovanın özünün də səhhətində problemlər yarandığı bildirilir. Aktrisanın yaxın rəfiqəsi Sədaqət Kamal facebook səhifəsində belə bir status paylaşıb: "Xalq artisti Nuriyyə Əhmədova yenidən dəhşətli bir faciə ərəfəsindədir. Deməyə dilim gəlmir. Çünki hələ ki sonun nə ilə nəticələnəcəyini ancaq Allah bilir. Ancaq gözlərim önündən getmir aktrisanın donub qalmış bənizi. Maraqlananlar özləri onunla əlaqə saxlasın. Mən artıq onun haqqı uğrunda mübarizədən yorulmuşam...Nuriyyə Əhmədovaya kömək edin!"

Qeyd edək ki, evi olmayan xalq artisti Nuriyyə Əhmədova fasilələrlə bacılarının və rəfiqələrinin evində yaşayır.

## İŞİD-in yeni haram siyahısı

### Turşu, quru yemiş və sirkə haram elan edildi



**10 iyulda Mosulda öz xilafətini elan edən İraq Şam İslam Dövləti ( İŞİD), "haram və qadağa" siyahısına bir neçə yeni dəyişiklik edib. Bu ilginc siyahıya turşular, sirkə, quru yemiş və müxtəlif növ çərəzlər daxil edən İŞİD, bazarlarda bu məhsulların satılmasına qadağa qoyub.**

Qidalardan əlavə, İŞİD geyim barədə də öz "haram və qadağa" siyahısını hazırlayıb. Kişilərə əfqan paltarları geyinmələri üçün çağırış edən İŞİD militanları bu çağırışa əməl etməyənləri ölüm cəzası ilə cəzalandıracaqlarını bildiriblər. Terror təşkilatı bundan başqa xalqa çağırış edərək bildirib ki, hər kəs öz İraq kimliyindən imtina etməli və İŞİD-in özünün hazırladığı kimliyi almalıdır.

Rojava Xalq Müdafiə Birlikləri (RXMB) tərəfindən təlim keçən 2 min 500 yezidi kürdü İŞİD-ə qarşı savaşmaq üçün Şenqal dağı ətrafında toplaşmağa başlayıb. Aylardır təlim keçən müdafiə birliyi İŞİD-ə qarşı savaşmaq üçün tam hazır olduqlarını bəyan ediblər. İŞİD-in nəzarətində olan əraziləri almağı hədəfləyən birlikdə keskin nişançılar, raket və hava topu idarəetmə sahələri üzrə mütəxəssislər fəaliyyət göstərir.

❑ Toğrul İSMAYIL


"Elm" tədris mərkəzi
**MAGIC LANGUAGES**
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


MÜSAVAT

## Müsavat Divanının toplantısı oldu

**Dünən Müsavat Partiyası Divanının növbəti toplantısı keçirilib. İclasda qərarların icrası, görülən işlər müzakirə olunduqdan sonra partiyadaxili məsələlərə baxılıb.**

Partiyanın mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, yığıncaqda Naxçıvan Muxtar Respublikasında insan haqları ilə bağlı Resurs Mərkəzinin əməkdaşı jurnalist İlqar Nəsibovun vəhşicəsinə döyülməsinə Müsavat Partiyası tərəfindən kəskin etiraz bəyanatı verildiyi qeyd olunub. Hakimiyyətin bu qanlı cinayəti məişət hadisəsi kimi təqdim etməsi məsuliyyətdən qaçmaq və repressiyaların davamı üçün zəmin yaratmaq cəhdi kimi qiymətləndirilib. Azərbaycan cəmiyyətinin və beynəlxalq təşkilatların bu məsələyə qəti etiraz bildirməsi məqbul sayılıb.

Yığıncaqda siyasi partiyaların siyasi məhbusları dəstəkləməklə bağlı funksional əməkdaşlığının davam etdirilməsi təqdir olunub.

Divanda son zamanlar ölkədə intihar və intiharlara cəhdlərin artması ilə bağlı Müsavat Partiyasının narahatlığı keçirdiyi ifadə olunub. Cəmiyyətin və hakimiyyətin bu məsələləri daima diqqətdə saxlaması zəruri hesab edilib.

Sonda cari məsələlərə baxılıb.



## Müsavatda qurultay müzakirələri keçirildi

**Avqustun 25-də Müsavat Partiyasının VIII Qurultayına Hazırlıq üzrə Təşkilat Komitəsinin yığıncağı keçirilib. Bununla bağlı partiyadan verilən məlumatda bildirilir ki, QHTK-nın yığıncağında partiyanın VIII qurultayında keçiriləcək seçki prosedurları ilə bağlı ətraflı müzakirələr aparılıb və bu barədə müvafiq qərarlar qəbul edilib.**

YENİ MÜSAVAT
N 213 (5922) 26 avqust 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Demokratiya şalvarı

(Bu yazını redaksiyamıza Tofiq Yaqublunun vəkili Nemət Kərimli təqdim edib)

**Həbsxanada lətifə danışmağın öz yeri var. Ancaq bunun da bir problemi var ki, burada danışılan lətifələrin əksəriyyəti boyat olur. Çünki xarici aləmdən təcrid olunmuş insanlara təzə lətifələrin çatması bir xeyli müşkül məsələdir. Odur ki, yeri gələndə yaddaşını qurdalayıb məqama uyğun lətifə tapmalı olursan. Məsələn, aşağıdakı köhnə lətifəni kamera yoldaşım Şükran Möhübalıyevin bir sözündən sonra danışmalı oldum: "Bir dəfə Molla Nəsrəddinə xəbər verirlər ki, arvadın damdan yıxılıb ağlı başından çıxıb. Molla başılovlu özünü arvadının yanına çatdırmaq əvəzinə dərin fikrə gedir. Soruşurlar ki, niyə tez arvadın yanına qaçmaq əvəzinə, oturub fikirləşirsən? Molla da cavabında deyir ki, onun arvadının başında ağıl yoxuydu, görəsən, oradan çıxan nəymiş?"**

Elə bu lətifəni danışıb qurtarmışdım ki, AzTV-dən mənə dəstək gəldi. Bir yapçı finxıra-fınxıra deyirdi: "Bizim iqtidar torpaqlarımızın işğal olunmasına heç vaxt imkan verməz". AzTV bunu demişdi ki, Şükran fikrə getdi. Soruşuram ki, ay Şükran, sənə nə oldu, niyə fikrə getdin? Şükran mənim sualıma sualla cavab verdi. Dedi ki, əgər bizim iqtidar torpaqlarımızın işğal olunmasına heç vaxt yol verə bilməzsə, görəsən, 1993-cü ildə ermənilərin ələ keçirdikləri 6 rayon nəymiş? Etiraf etdim ki, Şükranın bu Molla Nəsrəddinsayağı sualı qarşısında çaşıb qaldım.

Son günlər bir şeyə diqqət edirəm. Əvvəllər demokratiya, insan haqları, azad seçki, sərbəst toplaşma hüququ və s. haqda Qərbdən gələn tənqidlərə iqtidarın cavabları təxminən bu cür olurdu: "Deyilən iradlar həqiqətə uyğun deyil, Azərbaycan göstərilən sahələrdə uğurla inkişaf edir və üzərinə götürdüyü beynəlxalq öhdəliklərin əksəriyyətini yerinə yetirib". İrticanın cilovu tam buraxıldığı, açıq-aşkar konkret diktaturaya keçildiyi son aylar isə iqtidar ritorikasını bir qədər dəyişib. İndi o, Qərbdən gələn irad və tənqidlərə qarşı belə deyir: "Azərbaycanda mütləq demokratiya var, o, hətta gərək olduğundan da çoxdur, insan haqlarının pozulduğu, seçkilərin saxtalaşdırıldığı yer isə bizi tənqid edən ölkələrin özüdür". Bəli, bu qədər qəti və konkret.

Biri dərziyə şalvar sifariş verir. Elə alınır ki, şalvarı götürəndə onu geyinib yoxlamağa imkan olmur. Aradan iki-üç gün keçəndən sonra şalvar tikdirən təsadüfən küçədə dərzi ilə rastlaşır. Müştərisini tanıyan dərzi ondan şalvarın əyninə necə olmasını soruşur. Müştəri deyir: "Çox sağ olun, yaxşı tikmisiniz. Amma şalvar əynimə bir qədər böyükdür. Mən onun içində 3-4 addım atandan sonra yerindən tərpənir". Azərbaycan iqtidarının ölkədə demokratiya və insan haqları ilə bağlı son zamanlar söylədikləri fikirlər məhz bu şalvar məsələsində olduğu kimidir. İqtidar düz deyir, onun Azərbaycan xalqı üçün tikdiyi demokratiya şalvarı o qədər uzun və genişdir ki, xalqımız 3-4 əsr onun içində addımladıqdan sonra o yerindən tərpənəcək. Cəmi üç-dördcə əsr. Görüm onda Aydın Mirzəzadənin "indi gördünüz?" kinayəsinin qabağında necə duruş gətirəcəksiniz?

# İlqar Nəsibov olayının arxasındakı sirr pərdəsi

## Hüquq müdafiəçisini niyə öldürmək istəyiblər? RATİ Avropa Şurasını öz dəyərlərinə laqeydlikdə suçladı; Naxçıvandakı mənbə danışır; "Biz İlqara deyirdik ki, Fəridi yanından uzaqlaşdır..."

**"Bu gündən İlqar çətinliklə də olsa bulyon içməyə başlayıb". "Yeni Müsavat"a açıqlamasında bunu avqustun 21-də Naxçıvanda vəhşicəsinə döyülən hüquq müdafiəçisi İlqar Nəsibovun həyat yoldaşı, jurnalist Mələhət Nəsibova bildirdi. Onun dediyinə görə, İlqar Nəsibov artıq tibbi ekspertizadan da keçirilib.**

Ekspertizanın nəticələri gələn həftə bilinəcək: "ABŞ səfirinin müvəqqəti işlər üzrə rəhbəri zəng vurmuşdu. Biz də istəyirik ki, nəticə tez bilinsin. Beynəlxalq təşkilatlar da İlqar bəyin vəziyyəti ilə maraqlanıb. Burdakı tomoqrafiya çəkilişləri Türkiyə və xarici həkimlərə göndərilib. Onlar da rəy veriblər ki, ona gəzmək, ayaq üstə dayanmaq olmaz. Əks halda, qan sızma ola bilər".

**M.Nəsibova Naxçıvan DİN tərəfindən yayılan bəyanatla bu işin qəsdən məişət zemininə yönləndirilməyə cəhd edildiyini söylədi. Onun sözlərinə görə, bəyanatda hadisəni törədən şəxsin yalandan VHP üzvü kimi təqdim edilməsi də bu hadisədə hakimiyyətin əli olduğunu sübut edir:** "Biz artıq buna tam əminik. Tibbi ekspertiza, həkim rəyləri də göstərir ki, bu işi bir nəfər görə bilməz. Ancaq zombiləşmiş, sifariş almış insanlar başqasına qarşı belə fiziki güc tətbiq edə bilər. Onlar İlqar bəyi öldürmək istəyiblər. Hazırlıqlı adamlar olublar. Elə nahiyələrə zərbələr vurublar ki, öldürsünlər. Mən yenə də təkrar edirəm ki, Naxçıvan sınaq meydanıdır. Artıq insanların tutulması mərhələsi arxada qalıb. İndi başqa tufan gəlir - bəyənmədikləri adamları vurub öldürmək. Bu tendensiya tezliklə bütün Azərbaycana yayılacaq".

**Müsahibimiz İ.Nəsibovu döyən Fərid Əsgərovla guya yaxın dost olması barədə DİN-in bəyanatında yer alan məqamın ağ yalan olduğunu bildirdi:** "Onunla dost olmayıb, atası ilə dost olub. O, gənc kimi bizim ofisə gəlirdi, ordakı kompüterdən istifadə edirdi. Doğrudur, bizə dəfələrlə deyiblər ki, onun MTN-lə əlaqəsi vardı. Amma biz hamıya eyni gözlə baxırıq. Çünki hüquq müdafiəçisiyik, fərq qoymurduq ki, kim haranın adamıdır. Əgər adamın problemi varsa və bizə müraciət edibsə, onu həll etməyə çalışırdıq".

**M.Nəsibova hadisə baş verən gün yaşananları da dəqiqliklə xatırlayır:** "Telefonuna zəng edib çağırdı. Dedi ki, nəsə problemi var və bu barədə söhbət etmək istəyir. İlqar da şikayətini dinləmək üçün onunla görüşməyə getdi. Gözləmədiyi vaxt Fəridə zəng gəlib. Telefonun o biri tərəfindəki adam buna deyib ki, sən vur. İlqar bəy deyir ki, Fərid də ayağa durub, güclü zərbə endirib gözünün üstündən. Zərbələr beyin nahiyəsinə tərəf yönəlib



daha çox. Özünü itirib, gözünü açandan sonra bir neçə dəqiqə başının üstündə iri cüssəli adamları görüb. Onlar da bunu vəhşicəsinə döyməyə davam ediblər. Elə hesab edin ki, ölü adamı döyüblər".

**Müsahibimiz İ.Nəsibovun F.Əsgərovla ofisdə içki məclisi qurması, məclis zamanı aralarında münaqişə yaranması barədə DİN-in yazdıqlarının da ağ yalan olduğunu diqqətə çatdırdı:** "Dindarın cibinə narkotik atan, mədəni adamı şərləyən hüquq-mühafizə orqanlarından nə gözləmək olar ki? Hansı ictimai fəalın işini bu günədək vicdanla araşdırıblar? Onun o halını kim görsə, vicdanı qabarardı. Belə bir bəyanatın yayılması, baş vermiş hadisəni bu miqyasda təqdim etmək onu göstərir ki, İlqar Nəsibovun işini də bu cür "araşdıracaqlar"".

**M.Nəsibova İ.Nəsibovla dost olan F.Əsgərovun atası ilə hadisədən sonra hər hansı danışıqlarının olmadığını dedi. F.Əsgərovun həbsdə olmasına gəlincə, müsahibimiz buna da əmin deyil:** "Dəqiq bilmirik. Belə deyirlər ki, guya həbsdədir. Bəlkə kurortdadır?"

**Adının açıqlanmasını istəməyən bir naxçıvanlı mənbə də "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, F.Əsgərovla İ.Nəsibov arasında heç bir dostluq münasibəti olmayıb. Onun sözlərinə görə, hüquq müdafiəçisi F.Əsgərovun atası ilə dost olub:** "İlqara hamımız deyirdik ki, bu uşaq hüquq-mühafizə orqanlarına işləyir, onlarla əlaqəsi var. Amma Fərid İlqarın ofisindən əl çəkmirdi, tez-tez gəlib-gedirdi. Ona da tapşırırdılar ki, ora tez-tez get. Hadisənin məişət zəminində olması inandırıcı deyil. Birincisi, İlqar içki düşkünü birisi deyil ki, içki məclisləri qursun. İkincisi, tərbiyəli adamdır, heç kəs barəsində artıq-əskik danışan deyil. Hadisənin sifarişli olduğunu bütün Naxçıvan bilir".

**Xatırladaq ki, avqustun 21-də Naxçıvanda hüquq müdafiəçisi İlqar Nəsibova hücum edərək döyüblər. Bir nəfər saxlanılıb. Naxçıvan MR DİN-dən hadisənin məişət zəminində baş verdiyi bildirilib:** "İlqar Nəsibov uzun müddət Vətəndaş Həmrəyliyi Partiyası Naxçıvan Muxtar Respublikası təşkilatının sədri Fərid Əsgərovla yaxın dost olub. Vaxtaşırı onlar ictimai birliyin ofisində görüşərək içki məclisləri qurublar. Avqustun 21-də axşam saatlarında hər iki şəxs həmin ünvanda yenə də məclis qurub, spirtli içki qəbul ediblər. Həmin vaxt alkoqolun təsiri altında olan İlqar Nəsibovla Fərid Əsgərov arasında yaranmış mübahisə sonda əlbəyaxa davaya çevrilib". Məlumata əsasən, Fərid Əsgərov öz izahatında bildirib ki, davaya səbəb onun ailə üzvləri haqqında İlqar Nəsibovun işlətdiyi nalayiq və təhqiramiz ifadələr olub.

**Bu arada Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutu (RATİ) Azərbaycanda tanınmış jurnalist İlqar Nəsibova qarşı baş vermiş ölümcül hücumla bağlı bəyanat yayıb. Bəyanatda bildirilir ki, RATİ baş verən hadisədən dolayı şok və sarsıntı hissi keçirir:** "Bu hücum ifadə azadlığına dəyər verən hər bir şəxs, xüsusilə də Azərbaycanda ölkənin sədrlik dövrünə təsadüf edən amansız insan hüquqları repressiyasına göz yummağa davam edən Avropa Şurası üçün "oyadıcı bir zəngdir". Şura özünün hazırkı sədrini insan hüquqlarına qarşı silsilə qəddar cinayətlərə, o cümlədən tanınmış hüquq müdafiəçilərinin son həbslərinə və aparıcı qeyri-hökumət təşkilatlarının zorla bağlanmasına görə açıq şəkildə qınamayıb... İnsan hüquqlarına qarşı hücum baş verdikdə bunu pisləyən mətbuat bəyanatı vermək Avropa Şurasında həmişəki və gözlənilən bir prosedurdur. Təəssüf ki, repressiya başlanandan bəri biz kəskin bir bəyanat görməmişik. Azərbaycanın geosiyasi məqsədlərinə töhfə verdiyi müddətdə öz dəyərlərinə əhəmiyyət verməyən Avropa Şurası tərəfindən xəyanətə uğradıqlarını hiss edən ölkədəki müstəqil jurnalistlər, hüquq müdafiəçiləri və fəallar ümidsizlik içindədirlər".

**Qurum daha sonra Azərbaycan hakimiyyətinin jurnalist Nəsibova qarşı amansız hücum faktı üzrə dərhal müstəqil və şəffaf istintaqa başlamalı, bu əməli törədən və onları təhrik edən şəxsləri məsuliyyətə cəlb etməli olduğunu vurğulayıb:** "Azərbaycan bitmək bilməyən zorakılıqlara son qoymalı, jurnalistlərə qarşı hücumları açıq şəkildə pisləməli və onların xüsusilə fəaliyyətlərinə görə zorakılığa məruz qaldıqlarını tanımalıdır". RATİ öz bəyanatında Avropa Şurasını və ayrı-ayrı üzv dövlətləri Azərbaycanda insan hüquqları böhranına göz yummamağa, ölkədə fundamental insan hüquq və azadlıqlarının ciddi və davamlı şəkildə pozulmasını pisləməyə çağırıb.

**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 213 (5922) 26 avqust 2014

# Pərviz Həşimli ailəsi ilə açıq görüş istəyir

## Bunun baş tutub-tutmayacağı Bakı İstintaq Təcridxanası rəhbərliyinin qərarından asılıdır


Pərviz Həşimli

**Vəkil Elçin Sadıqov Bakı İstintaq Təcridxanasında saxlanılan hüquq müdafiəçisi, jurnalist Pərviz Həşimli ilə görüşüb. Bu barədə "Yeni Müsavat"a açıqlamasında E.Sadıqov məlumat verdi. Vəkil dedi ki, bir neçə gün əvvəl Ombudsman Aparatının nümayəndələri də Pərviz Həşimliyə baş çəkiblər. P.Həşimli saxlanma şəraitindən narazılığı olmadığını deyib: "Ombudsman Aparatının işçilərindən xahiş edib ki, ailəsi ilə açıq görüş versinlər. Bu günə qədər onların görüşü açıq olmayıb. Amma açıq görüş üçün təcridxana rəhbərliyinin razılığı olmalıdır. Bu məsələnin öz həllini tapacağına inanıram".**

Müsahibimiz P.Həşimlinin məhkəmə işi ilə bağlı son durumu da açıqladı. Dedi ki, iyulun 7-də Apelyasiya Məhkəməsi P.Həşimlinin işinə istintaq aparmadan baxılması barədə qərar verib: "Biz Apelyasiya Məhkəməsindən ali məhkəməyə kasasiya şikayəti vermişik. Ali Məhkəmə buna baxandan sonra işin taleyi bilinəcək".

Xatırladaq ki, bir neçə aydır BİT-də saxlanılan Pərviz Həşimliyə ailəsi ilə görüş yalnız şüşə arakəsmə vasitəsilə verilir. Jurnalistin özü və ailəsi dəfələrlə müxtəlif instansiyalara müraciət etsələr də, qadağa aradan qaldırılmır.

P. Həşimli Təvəkkül Qurbanov adlı şəxslə 2013-cü il sentyabrın 17-də Milli Təhlükəsizlik Nazirliyinin keçirdiyi əməliyyatla saxlanılıb. Onlara qarşı odlu silahın və döyüş sursatının qaçaqmalçılığı və odlu silah saxlama maddələri ilə ittiham irəli sürülüb. P. Həşimli ittihamları qəbul etmir, T.Qurbanovun MTN-in adamı olduğunu deyərək, onun vasitəsilə şərləndiyini və siyasi sifarişlə, saxta ittihamla həbs edildiyini bəyan edib. Lakin Bakı Ağır Cinayətlər Məhkəməsinin 15 may 2014-cü il tarixli hökmü ilə Pərviz Həşimli 8 il, Təvəkkül Qurbanov isə 8 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər.

Həbs olunduqdan sonra MTN-in istintaq təcridxanasında saxlanan P.Həşimli hökmdən sonra Bakı İstintaq Təcridxanasına köçürülüb.

❑ Sevinc TELMANQIZI

# Rauf Arifoğlu Fikrət Məmmədova müraciət etdi

## "Hakimlər Anar Məmmədovdan çəkinərək qanunu və hüququ yox, onun maraq və mənafeyini əsas götürürlər"; baş yazar nazirdən bu işi şəxsən nəzarətə götürməsini istədi

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu Azərbaycan Respublikasının ədliyyə naziri, Azərbaycan Respublikası Məhkəmə - Hüquq Şurasının sədri Fikrət Məmmədova müraciət edib. Müraciət son vaxtlar nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovla "Yeni Müsavat" arasında davam edən ziqzaqlı münasibətlər, çəkişmələr və qəzetin hesabından 4 min manatın qanunsuz olaraq müsadirə edilməsi ilə bağlıdır.**

Baş redaktor hesab edir ki, sonuncu böyük qanun pozuntularının müşayiəti ilə baş verib. Bu səbəbdən də R.Arifoğlu sözügedən müraciəti hazırlayıb. Qeyd edək ki, müraciət yalnız aşağıda oxuyacağınız mətndən ibarət deyil. Ona həm də məsələnin təfsilatı ilə əlaqədar hüquqi arayış hazırlanaraq əlavə olunub.

R.Arifoğlu öncə naziri baş vermiş hüquq pozuntusu barədə məlumatlandırıb. Baş yazar yazıb ki, Azərbaycan Respublikasının vətəndaşı Anar Ziya oğlu Məmmədov 2012-ci ildən başlayaraq "Yeni Müsavat" qəzetinə qarşı məhkəmə terroru həyata keçirdiyi üçün son vasitə olaraq, hüquqlarının müdafəsi üçün Məhkəmə - Hüquq Şurasının sədri F.Məmmədova müraciət ediblər: "Çünki qanun və hüququn açıq-aşkar bizim tərəfimizdə olmasına baxmayaraq, ayrı-ayrı hakimlər bu şəxsdən çəkinərək qanunu və hüququ yox, onun maraq və mənafeyini əsas götürürlər. Bizim gəldiyimiz qənaət odur ki, buna səbəb Anar Məmmədovun nəqliyyat naziri Ziya Məmmədovun oğlu və Azərbaycanda ən varlı sərvət sahiblərindən biri olmasıdır".


Rauf Arifoğlu


Fikrət Məmmədov

**R.Arifoğlu baş vermiş pozuntunun detallarını da açıqlayıb. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin son dövrdə Azərbaycanda məhkəmə sistemində ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi sahəsində inqilabi dəyişikliklərin əsasını qoyan "Elektron məhkəmə informasiya sisteminin yaradılması" haqqındakı 13 fevral 2014-cü il tarixli fərmanı da bu istiqamətdə vəziyyəti təkmilləşdirməyib:** "Bunun əvəzinə, Nizami Rayon Məhkəməsinin hakimi İmran Burcayev və Bakı Apelyasiya Məhkəməsinin hakimləri *(sədr Azad İmanov)* ölkədə ən tirajlı KİV olan "Yeni Müsavat" qəzetini məlumatlandırmadan və ya onun nümayəndələrinin iştirakı olmadan maraq və mənafelərimizə zidd qərarlar qəbul ediblər. Təsəvvür edin, özünümüdafiə imkanlarına malik, 70-ə qədər əməkdaşı olan, Cənubi Qafqazın ən böyük KİV-inə qarşı bu cür hərəkət edilirsə, belə hakimlər sadə vətəndaşlara qarşı hansı münasibəti nümayiş etdirirlər? Məhz belə hakimlərin qanunsuzluqlarının nəticəsidir ki, Avropa İnsan Hüquqları Məhkəməsində Azərbaycan əleyhinə çıxarılan qərarlar ildən-ilə artır".

**R.Arifoğlu işin mahiyyəti, prosessual və s. təfərrüatlar barədə geniş arayışı da müraciətə əlavə etdikdən sonra xahişini açıqlayıb:** "Xahiş edirəm, işi şəxsən nəzarətə götürəsiniz və hüquqlarınız çərçivəsində qanunun aliliyinin təmin edilməsi üçün müvafiq araşdırmanın aparılıb lazımi tədbirlərin görülməsi üçün tapşırıq verəsiniz".

❑ Sevinc TELMANQIZI

# Hakimiyyət 2015 seçkilərinə hazırlaşır

## Siyasətçilər iqtidarın son davranışlarının arxasındakı məqamları açıqladılar

**Son bir ayda nüfuzlu QHT rəhbərlərinə, hüquq-müdafiə təşkilatlarına qarşı həbslər dalğasının həyata keçirilməsinin arxasında hakimiyyətin hansı planlarının dayandığı ilə bağlı siyasi təhlilçilər müxtəlif versiyalar irəli sürürlər. Bəziləri hesab edir ki, həbslər 2015-ci il parlament seçkilərinə və Azərbaycanda keçiriləcək Avropa Yay Oyunlarına profilaktik hazırlığın tərkib hissəsidir.**

Bu fikirdə olanlar mövqelərini onunla əsaslandırırlar ki, hakimiyyət 2015-ci ilin parlament seçkilərində, eyni zamanda Avropa Yay Oyunları zamanı ona problem yarada biləcək Qərbə bağlı qüvvələri bəri başdan sıradan çıxarmağı hədəf götürüb. 2012-ci ildə Bakıda "Eurovision" mahnı yarışması keçirildiyi dövrdə bir sıra ictimai təşkilatlar, gənclər qurumları, siyasi təşkilatların fəallarının keçirdiyi etiraz aksiyalarını xatırladan siyasi şərhçilər hakimiyyətin 2015-ci ildə belə hallarla üz-üzə qalmaq istəmədiyini vurğulayırlar. Bəzi ekspertlər isə son həbslərlə ölkədə demokratiya anlayışının tamamilə sıradan çıxarılması prosesinin başlandığını düşünürlər.

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı isə hesab edir ki, Azərbaycan hakimiyyətinin 1993-cü ildən indiyə qədər ölkədə demokratiyaya münasibəti dəyişməyib. Əvvəlki siyasət davam edir:** "Bu hakimiyyət yarandıqdan dərhal sonra ölkədə Azərbaycan cəmiyyətinin 1988-1993-cü illərdə yaradıldığı az-çox demokratik institutları sıradan çıxarmaq, ölkədə plüralist cəmiyyətin, azad seçkilərin, azad mətbuatın olmasına imkan verməmək xəttini yürütməyə başlayıb. Bu xətt fasiləsiz olaraq davam etdirilir. O baxımdan mən hakimiyyətin siyasətində son dövrlərdə hansısa ciddi dəyişikliklərin baş verdiyi qənaətində deyiləm. Hakimiyyət bu repressiya tədbirlərini əvvəlcə xüsusilə siyasi partiyalara qarşı yönəltmişdi. Zaman-zaman siyasi partiyaların fəaliyyətinə maneçiliklər törədilib. Onların qərargahları əlindən alınıb, liderləri həbs olunub, strukturlarının dağıdılması istiqamətində fəaliyyət göstərilib. Hakimiyyət paralel olaraq azad mətbuatın sıradan çıxarılması istiqamətində işlər gördü. Bir çox azad, müstəqil qəzetlər bağlandı, bir çox mətbuat orqanları siyasi və iqtisadi baxımdan hakimiyyətin nəzarəti altına alındı. Hakimiyyət təbii ki, siyasi partiyalar və mətbuat orqanları ilə yanaşı ölkənin ictimai-siyasi həyatında rol oynayan QHT sektorunu da daim təzyiq altında saxlamaq xətti götürüb. Ancaq son zamanlar ümumiyyətlə bu institutu da tamamilə sıradan çıxarmaq və nəzarət altına almaq xətti götürülüb. Nəzarət altında olmayan QHT-lərə qarşı xüsusi amansızlıqla fəaliyyət həyata keçirilir. Eyni zamanda hakimiyyət özü bütün siyasətini maliyyə vəsaitləri hesabına həyata keçirdiyi üçün hesab edir ki, hansısa maliyyə mənbələri mövcud olan qüvvələr Azərbaycan hakimiyyəti üçün ciddi problemlər yarada bilər. Ona görə də hakimiyyət onun nəzarəti altında olmayan maliyyə axınlarını nəzarət altına götürmək xətti yürüdür. Hətta çox az vəsaitlə fəaliyyət göstərən QHT-lərin guya bu maliyyədən istifadə edərək cəmiyyəti səfərbər edəcəyindən ehtiyatlanır. Hakimiyyət bütövlükdə bütün siyasi, ictimai təşkilatların, mətbuat orqanlarının, ziyalı təşkilatlarının, gənclər təşkilatlarının fəaliyyətini tamamilə öz nəzarəti altında saxlamağa çalışır. Bu nəzarətə etiraz edən qüvvələr zaman-zaman cəzalandırılır. Növbə indi QHT sektoruna çatıb".


Arif Hacılı


Əli Əliyev

**A.Hacılı bütün demokratiya adalarının artıq ram edildiyi və ölkəmizin demokratiya sarıdan Türkmənistana çevrildiyi iddialarını qətiyyətlə rədd etdi. Səbəbini isə Azərbaycan cəmiyyətinin, müxalifətinin mübarizəni dayandırmadığı ilə əsaslandırdı:** "Azərbaycan cəmiyyətinin Türkmənistan cəmiyyətindən, hətta keçmiş sovet cəmiyyətindən əsaslı fərqi ondan ibarətdir ki, cəmiyyət aparılan siyasətin mahiyyətini kifayət qədər aydın başa düşür və ölkədə protest elektoratı çox yüksək səviyyədədir. Mən deyərdim ki, bəlkə də əhalinin 90 faizi mövcud siyasətdən narazıdır. Ölkədə bir sıra klassik təşkilatlar və müqavimət mərkəzləri ilə yanaşı yeni təşkilatlar, yeni qurumlar yaranır, gənc nəslin nümayəndələri bu prosesə böyük fədakarlıqla qoşulur. Düşünürəm ki, avtoritar idarəçiliyin korroziyaya uğradığı məqamda Azərbaycan cəmiyyəti çox qısa müddətdə ölkədə siyasi vəziyyəti əsaslı surətdə dəyişdirərək sıçrayışla demokratik dəyişikliklərə nail olacaq".

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyevə görə isə nüfuzlu QHT rəhbərlərinə yönəlik basqılar təsadüfi ortaya çıxan və yaxud ayrılıqda götürülmüş məmurun və ya qurumun keçirdiyi aksiya deyil. Soyuq məntiqlə hesablanmış davranışdır:** "Hakimiyyət bir neçə məsələni hədəfləyir. İlk növbədə, onsuz da "gözü qırılmış" topluma xof aşılanır, hər sahənin nəzarətdə olduğu mesajı cəmiyyətə ötürülür.

Paralel olaraq növbəti siyasi mərhələnin (2015-18-ci illər) hazırlıqları da görülür. Həbsdə olanlar artıq beynəlxalq ictimaiyyətlə danışıqlarda ticarət yapmaq üçün "qənimət" olaraq əldə edilib. Növbəti beynəlxalq istəyin yaxın gələcəkdə "normal seçki keçir" tələbindən daha çox, siyasi məhbuslar mövzusunda olacağı şübhə doğurmur.

Hakimiyyət eyni zamanda bölgənin yeni siyasi mərhələyə hazırlandığı məqamda Azərbaycanda baş verməsi gözlənilən dəyişikliklər üçün platsdarm ola biləcək şəxslər və institutları sıradan çıxarır. Ukrayna, Gürcüstan təcrübələrindən nəticə çıxaran YAP-ın siyasi texnoloqları, inqilablar dalğasını törədən impulsların necə yarandığından xəbərdar olduğu üçün ölkədə BRİ, MDİ kimi qurumları dışladıqdan sonra daxili institutların darmadağın edilməsi praktikasına başlayıb".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 213 (5922) 26 avqust 2014

## Rusiya anti-azərbaycançı şəbəkəni yenidən təşkilatlandırır

**Ötən həftəsonu bir sıra saytların elektron ünvanına baş nazirin sabiq 1-ci müavini Abbas Abbasov haqda sensasion material daxil oldu. Material əslində təkcə Abbasov haqda deyildi; saytlara elektron poçt vasitəsilə göndərilmiş həmin yazıda A.Abbasovun oğlu, deputat Aydın Abbasov haqda da ilginc xəbərlər yer alırdı.**



# Abbas Abbasov Kremlin yeni projesində - özəl xəbərlər

### Baş nazirin sabiq 1-ci müavini Moskvanın təhriki ilə yenidən ölkəmiz əleyhinə fəaliyyətə start vermək ərəfəsindədir; qayınanası düşmən millətdən olan birinin rusların dəstəyi ilə iqtidara gəlməsi Azərbaycana nə vəd edir

***

Ötən saylarımızda biz redaksiyamıza daxil olan həmin yazını ictimailəşdirdik. Xatırladaq ki, materialın əsas məğzi Abbas Abbasovun qayınanasının erməni millətindən olması, amma bu faktı uzun illərdir A.Abbasovun gizlətməsi haqda idi. Həmçinin materialda o da vurğulanırdı ki, deputat Aydın Abbasov erməni nənəsinin yas yerinə xüsusi mühafizə dəstəsi ilə gedibmiş. Deputatı qeyri-azərbaycanlılardan ibarət, çeçen millətindən olan silahlı mühafizə dəstəsi qoruyur. Bu barədə aşağıda ətraflı bəhs edəcəyik. Hələlik isə oxucuya ötən yazının qısa özətini və bir sıra yeni, özəl məlumatları çatdıraq.

***

Redaksiyalara göndərilmiş həmin materialda Rusiya Azərbaycanlıları Federal Milli-Mədəni Muxtariyyətinin ("AzerRos"un) Ağsaqqallar Şurasının sədri, baş nazirin sabiq 1-ci müavini Abbas Abbasovun qayınanasının erməni millətindən olmasını sübut edən arxiv sənədləri öz əksini tapıb. **Mənbə həmin sənəd haqda bunları bildirib:** "A.Abbasovun 1924-cü ildə Şəmkir rayonunun Borum kəndində doğulmuş erməni qayınanası Göharik Voskanovnanın adı sonradan Gövhər olaraq dəyişdirilib və o, Gəncə şəhərində həyat yoldaşı Nobil Quluyevin yanında dəfn olunub".

Materialda A.Abbasovun Ermənistanla sıx biznes əlaqələri haqda da qısaca bilgi verilib. Həmçinin onun Rusiyada da ermənilərlə şərikli biznes obyektlərinin olduğu vurğulanıb. Bizdəki məlumata görə, həqiqətən də A.Abbasovun Göyçə gölünün ətrafında bir neçə hoteli, həmçinin düşmən ölkədə tikinti biznesi var. Yəqin o, bu imkana məhz ermənilərlə qohumluq əlaqələrinə görə sahib olub.

**Redaksiyaya göndərilən materialdan sitat:** "Etibarlı mənbə tərəfindən verilən məlumata əsasən A.Abbasovun erməni qayınanası Göharik kürəkəni tərəfindən *(baş nazirin birinci müavini olduqdan sonra)* məcburən İmamzadədə "İslam dinini" qəbul edib. Onun qayınanası vəfat etmədən öncə erməni qohumlarının adlarını sadalayıb və Ermənistanda dəfn olunmasını vəsiyyət edib".

**Materialda o da bildirilir ki, Abbas Abbasovun həyat yoldaşı Bella Abbasova Nobilovna *(Nobil qızı)* Xarici Dillər Universitetində çalışır:** "Amma o, 1995-ci ildən sonra fəaliyyətini praktiki olaraq dayandırsa da, iş cədvəlinə uyğun olaraq maaş alır. On il ərzində isə o, qiyabi olaraq elmlər namizədi olub. Dosent adı alıb. Həmçinin Abbas Abbasov ermənilərlə qohumluğunu pərdələmək üçün həyat yoldaşının adını dəyişərək Bilqeyisə çevirib".

**Materialda Aydın Abbasovun nənəsinin dəfn mərasimi barədə də qeydlər var. Bildirilir ki, İslam qaydalarına uğun olaraq həyətdə 2 böyük çadır qurulsa da, yasda iştirak edənlər çox az olub:** "Buna səbəb isə vəfat edənin erməni olmasıdır. Millət vəkili Aydın Abbasov isə nənəsinin hüzr yerinə tək qatılmayıb. Onu çeçen əsilli 4 mühafizəçi (silahlı) müşayiət edib. Mühafizəçilərindən biri Rusiya vətəndaşı Abiev Rüstəm Raqimoviç olub".

Abbas Abbasovun ermənilərlə qohumluq əlaqələri haqda çoxdan söz-söhbət dolaşır. Amma onun qayınanasının düşmən millətin nümayəndəsi olması haqda bu cür dətallı bilgilər yox idi.

Məlumatın ölkə ictimaiyyətinin marağına səbəb olmasına baxmayaraq, Abbasovlar erməni iddiası ilə bağlı açıqlama, təkzib, izahat vermədilər. Bu da iddiaların mötəbərliyi barədə xüsusi qənaət yaratdı.

Ötən saylarda da qeyd etmişdik, yalnız A.Abbasovun qayınanasının ölümü bu həqiqətin ictimailəşməsinə səbəb ola bilməz. Həmin yazıda həmçinin bildirmişdik ki, mümkündür ki, Rusiya, Kreml yenidən Azərbaycan əleyhinə hansısa siyasi proseslərə start vermək ərəfəsindədir, yaxud artıq verib, ona görə də Moskvanın Bakıya qarşı əsas adamı sayılan, hətta müxalifətdə də tərəfdarlarının olduğu A.Abbasovun qayınanasının erməni olması haqda həqiqət ictimailəşdirilib.

Biz təxminlərimizdə yanılmamışıq. Həmin yazı işıq üzü gördükdən sonra bəzi mənbələrdən xəbərlər "axmağa" başladı. Həmin xəbərlərdə bildirilir ki, həqiqətən də Moskva Azərbaycan əleyhinə yenidən fəaliyyətə başlayıb. Əvvəla, 5-ci kolon adlandırılan Rusiya tərəfdarları yenidən fəallaşıblar. İkincisi isə əsası 2012-ci ilin yayından qoyulmuş, həmin ilin payızından açıq fəaliyyətə başlamış Kremlin "anti-Bakı layihəsi" kimi qarşılanan Ümumrusiya Azərbaycan Təşkilatları İttifaqı (ÜATİ) *(mətbuatda sonradan bu, "Milyarderlər İttifaqı" adı ilə təqdim olundu-red.)* formatında yeni bir təşkilat yaradılır. Yeni yaradılacaq *(mənbə bildirir ki, bu təşkilat artıq təsis edilib, sadəcə, elan olunması zaman məsələsidir-red.)* Anti-Azərbaycan təşkilatında yenə də Abbas Abbasova Moskva aparıcı rol verib. Mənbəmiz iddia edir ki, Azərbaycanın Rusiyanın heç bir layihəsində iştirak etməməsi, Avrasiya İttifaqına qoşulmaması, Gömrük İttifaqından imtina etməsi ölkəmizi növbəti dəfə Kremlin şantajı və təzyiqləri ilə üz-üzə qoyub. Mənbə avqustun əvvəlində 3 günlük müharibəni də bu prosesin tərkib hissəsi hesab edərək bildirir ki, Rusiya siyasi-hərbi hakimiyyəti bütün mümkün variantlara əl atıb Azərbaycanı öz müstəqil siyasi xəttindən imtinaya vadar etmək istəyir. **Mənbə bildirir:** "Moskva müharibə ilə Azərbaycanı şantaj etmək istədi, tam əks reaksiya ilə üzləşdi. Birincisi, Azərbaycan ordusu düşmənə olduqca layiqli cavab verdi. İkincisi və ən əsası, Moskva bu qısa müharibə zamanı yeni bir Azərbaycan xalqı ilə üz-üzə qaldı. Həqiqətən, heç kimin gözləmədiyi halda xalqımız erməni hücumundan sonra səfərbər olub işğaldakı torpaqları azad etmək üçün ayağa qalxmaq ərəfəsində idi. Rusiya 1988-92-ci illərdə azərbaycanlıların əlinin suyunu yaxşı görüb; ona görə millətin siyasi və hərbi proseslərdə rol alması Kremlin gözünü qorxutdu və ona görə də müharibənin geniş miqyas almasının qarşısını almaq məcburiyyətində qaldı".

Mənbə bildirir ki, ona görə də Moskva hələlik hərb variantını təxirə salıb ölkəmizə, onun hakimiyyətinə növbəti siyasi şantaj hazırlayır; ötən dəfə olduğu kimi, yenə "azərbaycanlılardan" ibarət növbəti qondarma siyasi təşkilat təsis edib, 2015-ci ildə, parlament seçkiləri ilində Azərbaycana təzyiq göstərmək istəyir. Moskva keçən il "Milyarderlər İttifaqı" vasitəsilə Azərbaycan hakimiyyətinə ciddi narahatlıq yaratdı. Moskvada yaşayan oliqarxları İlham Əliyev iqtidarına qarşı cəbhələndirdi. Kremlin dirijor çubuğu ilə fəaliyyətə keçən anti-Azərbaycan şəbəkəsi o qədər qabağa getdi ki, Moskvadan Azərbaycan hakimiyyətinə qarşı bəyanatı bəyanata calayırdılar. Abbas Abbasovun ötən ilin iyununda rəsmi Bakıya ünvanlanmış hədələyici bəyanatını yəqin çoxları unutmayıb...

Çox təəssüf ki, bu cür anti-Azərbaycan şəbəkənin tələsinə bəzi müxalifət partiyaları da asanlıqla düşdü. Bir çoxları hesab etdi ki, hakimiyyət naminə şeytanla da ittifaqa girmək olar. Amma siyasətdən az-çox anlayışı olanlar bilməmiş deyil ki, Abbas Abbasov, Söyün Sadıqov kimi rusiyayanlı adamlar üçün hazırkı müxalifətlə uzunmüddətli əməkdaşlıq mümkün deyil. Onlar Azərbaycan müxalifətinin potensialından hakimiyyətə gəlmək məqsədilə yararlana bilər, sonrası da məlum - istifadə müddəti bitənləri çöpə atırlar...

Çox güman, bu dəfə də bir sıra ürəyi iqtidara gəlmək arzusu ilə alışıb-yanan, bunun üçün bütün dəyərləri, maraqları ayaqlar altına almağa hazır müxalifətçilər tapılacaq ki, Abbas Abbasov, Söyün Sadıqov və digər Azərbaycan əleyhinə olanlarla ittifaq qursunlar. Amma ortada acı təcrübə və təkzibolunmaz fakt var. Birincisi odur ki, 2013-cü ilin prezident seçkisində "Milyarderlər İttifaqı"nın gerçək siması və niyyəti bəlli oldu. Rusiya bu təşkilatın əli ilə Azərbaycanda hakimiyyət dəyişikliyi edib öz namizədini iqtidara gətirmək istəyirdi. İkincisi və ən acınacaqlısı isə Abbas Abbasovun düşmən millətin nümayəndələri ilə qan qohumluğudur. İndi bəzi boşboğazlar deyə bilər ki, burda nə var, illər öncə A.Abbasov hardan biləydi ki, vaxt gələcək ermənilər Azərbaycana qarşı ərazi iddiasında bulunacaq. Buna görə insanları yarğılamaq səhvdir, filan... Bu cür düşünənlərə və deyənlərə cavabımız qısadır. Əvvəla, ermənilərin Azərbaycana qarşı ərazi, torpaq iddiası, eləcə də düşmənçiliyi dünənin işi deyil, ən azı 200 illik tarixi var bu prosesin. Digər tərəfdən də qayınanası, yəni övladlarının nənəsi erməni olan bir adamın Azərbaycanda iqtidara gəlməsi niyə normal, təbii qarşılanmalıdır?! Ermənistanda bu, mümkün ola bilərmi? Erməni cəmiyyəti qayınanası, yaxud qayınatası türk *(azərbaycanlı)* olan bir erməninin iqtidara gəlməyə qoyarmı? Əsla! Bəs o zaman biz niyə buna razı olmalıyıq?

Yeri gəlmişkən, hakimiyyət bu gün ermənilərlə əlaqəsi olduğunu iddia etdiyi bir sıra ictimai-siyasi xadimi həbs edib. Rauf Mirqədirov, Leyla Yunus, Arif Yunusov məhz "erməni işi"nə görə həbsdədirlər; onlara dövlətə xəyanət maddəsi ilə cinayət işi açılıb. Amma çox təəssüf ki, A.Abbasov kimi erməni qohumluğu olan bir məmur Azərbaycanda uzun illər yüksək vəzifələr tutub və bəziləri hələ də tutmaqdadır.

Abbasovlar ailəsinin ermənilərlə qohumluğu, dostluğu artıq təkzibolunmaz faktdır. Deputat Aydın Abbasov bu mövzuda ona zəng vurub fikrini öyrənmək istədiyi "Yeni Müsavat"ın əməkdaşının suallarından yayınıb. Deputat "mənim nənəm erməni deyil, bizim ailənin ermənilərlə heç bir qohumluq əlaqəsi yoxdur" deməyib. Və bununla da barələrində yayılmış həmin xəbərin gerçək olduğunu dolayısı ilə təsdiq edib.

Bu arada, deputat Aydın Abbasovun çeçen millətindən olan mühafizəçiləri də maraqlı faktdır. Abbasovların Çeçenistanın kriminal dairələri ilə əlaqələrinin olmasına dair indiyədək mətbuatda çox yazılıb. Azərbaycanda bir çox səs-küylü qətllərdə iştirakı məhkəmə vasitəsilə sübuta yetirilmiş çeçen kriminalları Abbas Abbasovun yaxın dostu olmaları haqda da təkzibolunmaz məlumatlar var. Mediada da bu barədə indiyədək çox yazılıb.

Hacı Məmmədov məsələsi ortaya çıxdıqdan sonra ortaya çıxan faktlar A.Abbasovun qaranlıq işlərinə müəyyən qədər işıq tutdu. Amma həmin vaxt Azərbaycanda yüksək post tutan A.Abbasov bu "işığın" qarşısını aldı. Faktların tam gerçəkləşməsinə imkan vermədi.

Maraqlıdır ki, Azərbaycanın hüquq-mühafizə orqanları Abbasovların ətrafında silahlı çeçenlərin mövcudluğuna dözümlü yanaşır. Nə vaxta qədər? Haraya qədər?

**Bir də ən maraqlı sual budur: Abbas Abbasov qayınanasının yas məclisində iştirak etmək üçün niyə Azərbaycana gəlmədi?**

❑ **Aydın ASLAN**

# Müsavat başqanlığına iddiaçılar şanslarından danışdılar

**Məlum olduğu kimi, Müsavat Partiyası sentyabrın 27-də VIII qurultayını keçirmək niyyətindədir. Partiya 4 ildir ki, ali orqanına seçkiləri BŞİH-in tədbir üçün normal yer ayırmaması ucbatından keçirə bilmir. Bütün bunlara baxmayaraq, partiya sentyabra təyin olunan qurultayını keçirməkdə israrlıdır.**

Avqustun 27-də başqanlığa namizədlərin təbliğat və təşviqat kampaniyasına start veriləcək. Seçkili orqanlara namizədlərin irəli sürülməsi müddəti qurultaya 30 gün qalmış *(27 avqust 2014-cü il saat 10:00-dan)* başlayacaq və qurultaya 10 gün qalmış *(17 sentyabr 2014-cü il saat 10:00-dək)* başa çatacaq.

Həm təşviqat və təbliğat kampaniyasına hazırlıqların necə getməsi haqda, həm də iddiaçıların qələbəyə olan inamları barədə məlumat almaq üçün Müsavat Partiyası başqanlığına namizədliklərini irəli sürəcəkləri ehtimal olunan siyasətçilərlə - Arif Hacılı, Qubad İbadoğlu və Tural Abbaslı ilə əlaqə saxladıq.

**"Əgər namizədliyimizi irəli sürmək qərarına gəlmişiksə, deməli..."**

**Qubad İbadoğlu:** "Bildiyiniz kimi, ayın 27-dən başlayaraq, təbliğat və təşviqat kampaniyasına start verilir. Və biz də bunun üçün tam gücümüzlə hazırlaşırıq. Təşkilat Komitəsinin toplantısında bir çox təklifləri müzakirə edəcəyik. Bunlardan ən əsası nizamnaməyə və proqrama ediləcək dəyişikliklərdir. Seçki zamanı namizədlərin bərabərhüquqlu iştirakı və ədalətli seçki şəraitinin yaradılması istiqamətində müzakirələr davam etdiriləcək. Ümumilikdə isə hər şey normal gedir.

Əgər namizədliyimizi irəli sürmək qərarına gəlmişiksə, deməli, qələbəyə inamımız var və bu inam böyükdür. Bununla bağlı təbii ki, müəyyən iş qrafiki və fəaliyyət proqramı da olacaq. Bu, arada onu da vurğulamaq istəyirəm ki, mənim bir müsahibəm təhrif olunub. Bu ya istəyərəkdən edilib, ya da müxbir öz fikirlərini yazıb. Müsavat başqanlığına namizədlikdən geri çəkilə biləcəyimlə bağlı yayılan məlumatlar düzgün deyil. Öncə namizəd olmalıyıq ki, onu geri götürməklə bağlı danışa bilək. Hər halda, mətbuat orqanı bu məsələlərdə diqqətli olmalıdır. Müxbir öz fikirlərini yazmalı deyil".

**"Biz Müsavata vəzifəyə görə yox, mübarizəyə görə gəlmişik"**

**Tural Abbaslı:** "Təşkilat Komitəsinin toplantısında bir çox məsələlər müzakirə olunacaq. Ayın 27-də namizədlərin təbliğat və təşviqat kampaniyası başlayır və biz də rəsmi olaraq öz namizədliyimizi irəli sürəcəyik. Və bundan sonra təbliğatla bağlı planlarımızı gerçəkləşdirəcəyik. Tək problemimiz qurultay üçün hələ də yerin ayrılmamasıdır. Onu da ən qısa zamanda həll etməyə çalışırıq.

Qələbəyə tam şəkildə inanıram. Çünki öz qələbənə az da olsa, inamın yoxdursa, namizədliyini irəli sürməyə dəyməz. Müsavat kimi demokratik partiyada seçkilərin nəticələrini öncədən bilmək mümkün deyil. Çünki insanlar azad şəkildə öz seçimlərini edərək, səs verəcəklər. Mən hesab edirəm ki, bizim qalib gəlmə şansımız nə qədərdirsə, digər namizədlərin də şansı o qədərdir və ya əksinə... Müsavat kimi bir partiyada seçkilərin nəticələri öncədən müəyyənləşmir. Hər şey səsvermənin nəticələrindən asılı olacaq. Biz də çalışacağıq ki, seçicilərin səslərini qazanaq və qələbə çalaq. Amma qələbə qazanmasaq, bu, bizim üçün ölüm-qalım məsələsi olan da deyil. Çünki biz Müsavata vəzifəyə görə yox, mübarizəyə görə gəlmişik. Biz normal, demokratik Azərbaycanın qurulması üçün gəlmişik və qalib mübarizəmizə davam edəcəyik. Amma hazırda qələbəyə köklənmişik və inanırıq ki, uğurlu nəticələr alacağıq".



**Qubad İbadoğlu:** "Əgər namizədliyimizi irəli sürmək qərarına gəlmişiksə, deməli, qələbəyə inamımız var və bu inam böyükdür"



**Tural Abbaslı:** "Bizim qalib gəlmə şansımız nə qədərdirsə, digər namizədlərin də şansı o qədərdir"



**Arif Hacılı:** "Seçkilərin nəticələrinin necə olacağı mənə indidən təxminən aydındır"

**"Seçkilərdə kimin nə qədər səs toplayacağını da təxminən bilirəm"**

**Arif Hacılı:** "Seçki ilə bağlı artıq müzakirələr aparmışıq. Təbliğat və təşviqat kampaniyası şəffaf aparılacaq. Cəmiyyət bu kampaniyanın gedişini izləmək imkanlarına malik olacaq. Seçkilərdə qələbə çalmağımız Müsavat Partiyasının üzvlərindən asılı olacaq. Təxminən 600 qurultay nümayəndəsi var və demək olar ki, onların hər birini şəxsən tanıyıram. Seçkilərin nəticələrinin necə olacağı mənə indidən təxminən aydındır.

Seçkilərdə kimin nə qədər səs toplayacağını da təxminən bilirəm. Bu da onunla bağlıdır ki, mən 20 ildən çoxdur ki, Müsavat Partiyasında bilavasitə təşkilati işlərlə məşğul olmuşam. Rayon təşkilatlarının qurulmasında, fəaliyyətinin tənzimlənməsində birbaşa iştirak etmişəm. Qurultay nümayəndələri ilə birlikdə həm seçki mübarizəsində, həm partiya quruculuğu işlərində, həm də Müsavat Partiyasına hansısa basqılar olan zamanlarda çiyin-çiyinə fəaliyyət göstərmişəm. Ona görə də onların nə düşündükləri və qurultayda təxminən nə cür səs verəcəkləri barədə kifayət qədər məlumatım var. Buna görə də seçkilərin nəticələrinin nə cür olacağını bilirəm".

❑ **Məhəmməd TÜRKMƏN**

# "Avropaya mühacirət edənlərin sayı artıb"

## Tural Sadıqlı fəaliyyət planlarından danışdı; Avropanın digər şəhərlərində də ADDA-nın nümayəndəlikləri açılacaq



Tural Sadıqlı

**Xəbər verdiyimiz kimi, avqustun 23-də Almaniyada yaşayan mühacir azərbaycanlılardan ibarət təşkilat təsis edilib. "Avropa Demokratiyaya Dəstək Alyansı" (ADDA) adlandırılan yeni təşkilatın təsis yığıncağı Nürnberg şəhərində yerləşən türk cəmiyyətlərinin birinin klubunda baş tutub.**

Yığıncaqda ADDA-nın nizamnaməsi qəbul edilib və qurumun İdarə Heyətinə 13 nəfər üzv seçilib. Səs çoxluğu ilə Tural Sadıqlı İdarə Heyətinin sədri seçilib.

Təşkilatın mərkəzi Almaniya Federativ Respublikasının Nürnberg şəhərində yerləşəcək. Lakin Avropanın digər şəhərlərində də ADDA-nın nümayəndəlikləri açılacaq.

**Sədr Tural Sadıqlının yeni yaradılan təşkilatla bağlı fikirlərini aldıq. O, ADDA-nın məqsəd və vəzifələri ilə bağlı bunları dedi:** "ADDA-nın əsas məqsədi demokratik təşəbbüslərin inkişaf etdirilməsi və insan haqlarının qorunması sahəsində beynəlxalq və lokal proseslərə kömək etməkdən ibarətdir".

**ADDA sədri təşkilata üzv olmaq üçün müraciət edənlərin sayının günbəgün artdığını da qeyd etdi:** "Olduğumuz ərazidə, yəni Almaniyanın Bayern Federasiyasında əqidəsinə və fərdi fəaliyyətinə bələd olduğumuz 50-dən çox azərbaycanlı mühacirlə bu təşkilatın yaradılması barədə ümumi razılığa gəldik. Təsis yığıncağında onların bir qismi yollarının uzaq olması səbəbindən iştirak edə bilmədi. Hazırda Almaniyanın bir çox şəhərlərindən üzvlük üçün bizə müraciətlər var. Bəzi şəhərlərdə üzvlük üçün müraciət edənlərin sayı 2 gün müddətində onlarladır. Bu baxımdan yeni nümayəndəliklərin açılmasını nəzərdə tutmuşuq. İlk olaraq Almaniyanın Münster və Berlin şəhərlərində nümayəndəliklərin açılması gözlənilir. Nizamnaməmizdə göstərildiyi kimi, ADDA-nın fəaliyyəti Avropanın bütün ərazilərini əhatə edir. Yaxın müddət ərzində ancaq təşkilati işləri həyata keçirməyi nəzərdə tutmuşuq. Ondan sonra nizamnamədə nəzərdə tutulan fəaliyyət istiqaməti üzrə işlər görməyə başlayacağıq. Böyük və təsirli işlər, böyük və güclü təşkilatın varlığından asılıdır".

**Tural Sadıqlı Almaniyaya mühacirət edənlərin sayında ciddi artım olduğunu söylədi:** "Uzun illərdir, Avropaya Azərbaycandan insanlar köç edir. Əksəriyyəti də siyasi mühacirət adı ilə Avropa dövlətlərinə müraciət edib, burada yaşamaq hüquqi qazanmış kəslərdir. Sayları on minlərlədir. Bu say Almaniyada daha çoxdur. Onların burda fəaliyyətsiz qalmaması üçün həqiqi Azərbaycan maraqlarına xidmət edən və Azərbaycanın demokratikləşməsi naminə çalışan təşkilatlarda yer alması daha məqsədəuyğundur".

**Müsahibimiz Almaniyada yaşayış izni almağın prosedurlarından da danışdı:** "Azərbaycanda həqiqi siyasi problemləri olmayan şəxslərin Almaniyada oturum alması çətindir. Çünki Almaniyanın müvafiq qurumu siyasi sığınacaq üçün müraciət etmiş adamı araşdırır, ölkəsində probleminin olub-olmamasını müəyyənləşdirir. Əgər şəxs öz problemlərini ilk dəfədən sübut edə bilirsə və müvafiq qurumun araşdırması onun problemini üzə çıxarırsa, normal halda siyasi sığınacaq üçün müraciət etmiş şəxs 1 il müddətində oturum əldə edir. Lakin bəzən bu hal uzana da bilir. Almaniyada 5 ildən çox, hətta 10 ilə yaxın müddətdə yaşayanlar da var ki, oturumları yoxdur".

**Tural Sadıqlı Ermənistandan Almaniyaya mühacirət edənlərin sayının Azərbaycana nisbətən çox olduğunu bildirdi:** "Onların axını azərbaycanlılardan bir az çoxdur. Ermənilərlə azərbaycanlıların münasibətinə gəlincə, Almaniya demokratik və tolerant ölkədir. Ona görə də burada milli və dini ədavətin həyata keçirilməsi yolverilməzdir. Bu baxımdan hər iki xalqın nümayəndələri də bu ədavətə əməli şəkildə yol vermirlər. Hər kəs fərdi və kütləvi şəkildə hər hansı mövzuda öz etirazını hər hansı bir ölkəyə və ya fikrə qarşı aksiya vasitəsilə bildirə bilər. Lakin bu etiraz bundan o yana keçmir. Burada ermənilərlə təsadüflə küçədə və s. yerlərdə rastlaşa bilirik. Bəzən azərbaycanlıların məcburiyyətdən erməni qonşuları da olur. Lakin müşahidələrim əsasında onu deyə bilərəm ki, azərbaycanlıların ermənilərlə yoldaşlıq etməsi Almaniyada rast gəlinən hal deyil".

❑ **Cavanşir ABBASLI**





# Partiya sədrinin bölgələrə səfəri başlayıb



**Avqustun 23-də Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə Şəkiyə, 24-də isə Qəbələyə səfər edib. Səfər çərçivəsində İ. Ağazadə partiya fəalları və bələdiyyə seçkilərində namizəd olacaq partiya üzvləri ilə görüşüb. Görüşdə partiya sədri ölkədə, regionda və dünyada baş verən ictimai-siyasi vəziyyət, partiyanın seçkilərə qatılmasının əhəmiyyəti və səbəbləri, bələdiyyələrin satatusu ilə bağlı məruzə ilə çıxış edib, mövzu ilə bağlı sualları cavablandırıb. Şəkidə keçirilən görüşdən sonra vətəndaşlarla görüşən millət vəkili, onların problemlərinin dinləyib və mümkün olan köməkliyi edəcəyini bildirib.**

İqbal Ağazadə görüş zamanı qeyd edib ki, hakimiyyətin uzun illər apardığı seçki siyasəti, bələdiyyələrin icra hakimiyyətindən asılılığı və səlahiyyətsiz bir quruma çevrilməsi əhalini siyasətdən, siyasi proseslərdən kənar saxlamağa xidmət edir. Bunun nəticəsidir ki, qarşıdan gələn bələdiyyə seçkilərində iştiraka həm siyasi institutlar, həm də vətəndaşlar həvəssiz görünürlər. 2014-cü il bələdiyyə seçkilərində heç nə edə bilməsək, biz bu prosesə qatılmasaq beynəlxalq təşkilatlar qarşısında iqtidarın əlinə daha bir şans vermiş oluruq. İqtidar yenə də deyəcək ki, müxalifətin elektoratı yoxdur, yerli seçkilərdə, bələdiyyə seçkilərində iştirak etmirlər. Bunların gücü bu qədərdir. Bu səbəbdən bələdiyyə seçkilərində iştirak çox vacibdir. Proseslərə qoşulmaqla hakimiyyətin seçki ilə bağlı apardığı təbliğatın qarşısını almaq mümkündür. Biz hakimiyyətin planlarının sıradan çıxmasına xidmət edən addımlar atırıq.





Qərb indiyə qədərki bütün seçkilərin hamısında iştirakın vacib olduğunu israrla bildirir. Azərbaycanda hələlik seçki prosedurları var. Xalqla təmas imkanları olur, efir vaxtı verilir; bu prosedurların dayandırılmasına imkan verməmək olmaz. Seçkidə iştirak etmək lazımdır ki, Avropanın da diqqətini qüvvə olaraq cəlb edə bilək.

Sonda partiya sədri fəallara və seçkilərdə namizəd olacaq üzvlərə öz tapşırıq və tövsiyələrini verib, qarşıda duran vəzifələrdən danışıb. Qeyd edib ki, maksimum bələdiyyə subyekt üzrə maksimum namizədlə seçkiyə qatılmaq partiyanın qarşıya qoyduğu əsas vəzifələrdən biridir.

**1. İqtidar Milli məsələlərlə bağli prinsipial deyil , hakimiyyət maraqları naminə milli dəyərlərimiz kontekstində belə sövdələşməyə gedə bilər. Üstəlik siyasi hakimiyyətin Doktor Cavad Heyətin dəfnində iştirak etməməsi, vida nitqinin dövlətin təmsilçisi tərəfindən edilməməsi və atanın 2-ci Fəxri Xiyabanda torpağa tapşırılması siyasi cəsarətsizliyin göstəricisi idi. Doktor Cavad Heyətin yalnız cərrah və türkoloq kimi təqdim olunmasına da bu acıdan yanaşmaq olar. Halbuki son mənzilə uğurlanan 50 milyonluq bir millətin mənəvi atası idi.**



**Rüfət MURADLI**
**Ümid Partiyası sədrinin İctimaiyyətlə əlaqələr və Xaricdə yaşayan soydaşlarımızla iş üzrə müavini**

# Doktor Cavad Heyətin ölümü və aldığımız nəticələr

**2.** Azərbaycanda dini konsepsiya boşluğu. Nə vaxta qədər başqa islam ölkələrinin diktəsini qəbul etməliyik?! Dəfndə şeyxülislamın və ya nümayəndəsinin görünməməsi gerçəkdən Quzey toplumu üçün üz qarası idi.

**3.** Azərbaycan siyasi müxalifətinin önəmli hissəsi sanki milli dəyərlərimizə biganələşib. İki gün ərzində partiya liderlərindən yalnız İqbal Ağazadə, Sabir Rüstəmxanlı və Milli Şura sədri Cəmil Həsənlinin yas mərasiminə qatılması gözümüz önündə bu tablonu cızır.

**4.** İran hakimiyyətinin milli varlığımız uğrunda mübarizə etməsi səbəbindən sağlığında qəbul etmədiyi şəxsiyyətə ölümündən sonra bu qədər ilgi göstərməsinin səbəbi - Onu yalnız İran alimi, İranın iftixarı kimi təqdim etmək! Yas törəninə səfirliyin diplomatlarının qatılması, mərasimin 2 ci günündə əslən Azərbaycan türkü olan Bakıdakı Mədəniyyət Mərkəzinin sədrinin israrla, özü də işrirak edənlərin əksəriyyətinin bu dili bilməməsinə rəğmən farsca çıxış etməsi də məhz bu planın tərkib hissəsi idi.

**5.** Xalqımız da kimi itirdiyinin fərqində deyil sanki. Bu məsələdə də hakimiyyətin xalqı yönləndirməsi önəmli idi, amma olmadı.

**6.** Media qurumları isə iqtidar, müxalifət və ümumilikdə əzaya qatılan topluma nisbətdə daha təsirli göründü.

**7.** Ümumilikdə isə mərasimin nisbətən sönük təşkili ilə iqtidar bir daha alternativ kütləviliyə qarşı olduğunu sərgilədi.

**Nəhayət...**

Amma ölümü ilə millətə sonuncu xidmətini edən məhz Cavad Heyət dühası oldu. Bir dəfə mənimlə görüşündə Bakıya daha cox bağlı olduğunu bildirmişdi. Elə çox sevdiyi Bakıda dəfn olunmasını vəsiyyət etməsilə O bir daha şüurlardakı bütövlük məfkurəsini diriltdi. Parçalanmış millətimiz üçün bir daha Təbrizlə Bakı arasında körpü saldı. Doktor Cavad Heyət həyatının son illərində yaşayış yeri kimi Bakını seçməklə bütövlük idealına nə qədər bağlanmışdısa da, elə Bakıda da dəfn olunmaqla tarixdə məhz Azərbaycan -Türk insanı kimi yerini təsbit etdi.

Məkanı cənnət olsun!



**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 213 (5922) 26 avqust 2014



# Məktəblər yenilənir

Zamin HACI
zaminhaci@gmail.com

**Təzə təhsil nasiri, üzr istəyirəm, naziri Mikayıl müəllim Cabbarov yavaş-yavaş sistem dəyişiklikləri edir, artıq Misir müəllimin qaranlıq sinif otaqları maarif ziyasının şəfəqlərinə bürünmək üzrədir. Dan yeri sökülür. Çobanlar quzuları yaylaqlara qaldırırlar. Lerikli sağıcı Təhminə xala şehli otları ayaqlayaraq fermaya, inəkləri sağmağa gedir. Tütəkdə "Ellər atası" mahnısı çalınır. Açığı, son dörd cümlə təzə oxuduğum bədii əsərdən - Anar müəllimin "Təhminə və Ay Zaur" romanından parça idi, istədim oxucular da agah olsun.**

Mikayıl müəllimin tətbiq elədiyi əsas yeniliklər sırasında hökumətimizin bağladığı türk liseylərində oxuyan şagirdlərin dövlət məktəblərinə dəvət edilməsini göstərə bilərik. Qabaqlar belə olmazdı. Misir müəllim məktəbi bağlayanda uşaqları da çölə atırdı. Mikayıl müəllim isə humanistdir.

İkincisi, bu il qəbul zamanı yalnız 1, 2, 3, 4-cü qruplara keçid balı aşağı salındı. Əvvəlki nazirin dövründə isə 5, 6, 7, 8-ci qruplarda vəziyyət ağır olurdu, heç kim oxumaq istəmirdi.

Bu yaxında Mikayıl müəllim həyəcanla, ürək ağrısı ilə bəyan etdi ki, 6-cı siniflər üçün dərslik çap olunmayıb. Dərs ilinin başlanmasına isə çox az zaman qalır. Qabaqkı illərdə Misir müəllim 1-dən 10-a qədər siniflərin dərsliyini ilin istənilən vaxtı çap edirdi, bir şagirdin də burnu qanamırdı. Məsələn, "Əlifba" kitabını birincilərə apreldə verirdilər, onbirincilər isə "Fizika" dərsliyini məktəbi qurtarandan 10 il sonra - toylarında hədiyyə alırdılar.

Yeri gəlmişkən, Mikayıl müəllim iştirakçısı olduğu "Nə? Harada? Nə vaxt? Hansı direktora? Neçə manat?" intellektual verilişi ilə də valideynlərin könlünü oxşayır.

Təzə nazirin məktəblərə gətirdiyi təzələnmələr sizin ağlınıza gəlməyəcək qədər çoxdur. Bunlardan Təhsil Nazirliyi yanında Ağbirçəklər Şurasının yaradılmasını, ən yaltaq uşağa "Tüpürcək vedrəsi" fəxri mükafatının təsis edilməsini, Narxozda mobil telefonların qadağan edilməsini göstərə bilərik. Sonuncu lap unikaldır. Təsəvvür edin, indi Narxozda nəinki dərs oxumaq, elm öyrənmək, hətta cib telefonu ilə danışmaq da mümkün deyildir! Görün ordan necə iqtisadçılar çıxacaqdır!

Nəhayət, bugünlərdə Mikayıl müəllim yorulmadan törətdiyi yeniliklərin sırasına daha birisini qoşmuşdur. Deyir ki, məktəblərdə internetin imkanlarını genişləndirəcəyik, ola bilsin kompüter otaqlarına bəzi şagirdləri də buraxacaqlar. Bundan başqa, Mikayıl müəllim deyib ki, gərək biz uşaqlara dərs keçəndə Google və Vikipediyanın da bazasından yararlanaq. Dünya məktəbləri belə edirmiş, biz niyə etməyək və sairə.

Düzü, mən istəməzdim Mikayıl müəllim internetin, "qoqili-moqilinin" başını məktəbdə çox buraxsın. Təhlükəlidir. Misal üçün, elə həmin Google axtarış portalında nazir bəyin adını - "Mikayıl Cabbarov" yazın, görün nə çıxır. İlk linklər belədir: "Mikayıl Cabbarov öz müavininə istefa ərizəsi yazdırıb", "Mikayıl Cabbarov Məleykə Abbaszadəni pis vəziyyətdə qoydu", "Mikayıl Cabbarov direktorla bacarmır", "Mikayıl Cabbarov öz kadrının atasını direktor qoydu" və sairə şəklindədir.

Yaxud Vikipediyada "müəllim" sözünü yazanda mix.az əyləncə saytından bir şairanə məlumatın linki çıxır: "Müəllim şərəfli peşədir, o öz həyatını xalqının gələcəyinə sərf edir" və sairə. Guya uşaqlar bunu bilmirlər.

Ən yaxşısı o olar ki, məktəblərdə kompüter oyunları salonları açılsın, uşaqlar dərsdən yayınıb itin-qurdun zirzəmisində oynamasın. Özü də məsləhət olmasın, uşaqlar vampirlər, zombilər haqda kompüter oyunlarını öyrənməlidir. Xalqımızın bu kadrlara ehtiyacı var. Həm də həyatı anlayarlar.

# Gözlənilən bir andiçmənin iki mübhəm detalı

**Türkiyənin ilk dəfə olaraq ümumxalq səsverməsi ilə seçilmiş prezidenti Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimi də böyük ehtimalla, ölkə tarixində bir ilk olacaq. Avqustun 28-nə təyin edilən inauqurasiya, görünür, həm də başqa tarixi nüanslarla yadda qalacaq. Ancaq bu haqda az aşağıda...
Artıq Xarici İşlər Nazirliyi dəvətnamələri göndərib. Bir qayda olaraq belə dəvətlər diplomatik münasibətlər olan dövlətlərin rəhbərlərinə ünvanlanır. Bu xüsusda işğalçı, Türkiyə dövlətinə rəsmən ərazi iddiası olan Ermənistanın prezidentinə də məktub ünvanlanması təəccüblü görünə bilərdi.**



# "Futbol diplomatiyası" qayıdır? - təhlil

## Ərdoğanın inauqurasiyasına təşrif buyuracaq Nalbəndyan mühüm bir suala cavabla ölkəsinə dönməlidir; ABŞ-ın sponsorluq elədiyi "Yol xəritəsi"nə avqustun 28-də start verilə bilər; Azərbaycanı tədbirdə spikerin təmsil eləməsi təsadüfdürmü?..

Amma faktdır ki, prezident Serj Sərkisyan rəsmi Ankaradan dəvət gəldiyini təsdiqləyib.

Ermənistan dəvəti artıq dəyərləndirib də. Sərkisyanın sözlərinə görə, ölkəni tədbirdə böyük ehtimalla, xarici işlər naziri Edvard Nalbəndyan təmsil edəcək. Əslində bu qərarın əksi təəccüblü olardı. Axı az öncə Sərkisyan Ərdoğanı seçkilərdəki qələbə münasibətilə şəxsən təbrik eləmişdi. Doğrudur, bunu o, telefon zəngi ilə yox, teleqram vasitəsilə eləmişdi, amma mahiyyət dəyişmir, nədən ki, Ərdoğan da təbriki adekvat qiymətləndirərək, andiçmədə iştirak üçün qarşı tərəfə dəvət göndərib - təkrar edirik, diplomatik münasibətlər mövcud olmaya-olmaya.

Məsələ də ondadır ki, belə xoşməramlı mesaj mübadiləsində indi hər iki tərəf məmnun və maraqlı görünür. Əvvəla, Ermənistan Rusiyanın Qərb tərəfindən getdikcə daha da küncə sıxışdırıldığını fərq edərək, bunun küləyinin ona da dəyəcəyini bilir və labüd perspektivdən bəri başdan çıxış yolları arayır. Çıxış isə ilk növbədə Türkiyəyə sarıdır, sərhədlərin açılması səmtinədir.

Lakin Sərkisyan iqtidarı buna incə şəkildə getmək zorundadır ki, daxili dayaqları onsuz da zəif olan hakimiyyəti laxlamasın, cəmiyyəti ifrat qıcıqlandırmasın. Ermənistan prezidentinin bir neçə ay öncə Türkiyənin yeni seçiləcək prezidentini uydurma "genosidin" İrəvandakı 100 illik törəninə dəvət eləməsi də öncəliklə bu qəbildən təbliğati kompensasiya məqsədi güdürdü. Ərdoğanın Ermənistandakı "yubiley" tədbirinə qatılması Sərkisyan daxili siyasətdə manevr imkanını əhəmiyyətli şəkildə artırardı.

O səbəbdən Ermənistan prezidentinin inauqurasiyaya yollanacaq Nalbəndyana konkret tapşırığı var: erməni nazir öyrənməlidir görsün ki, prezident Ərdoğan uydurma soyqırımın 100 illiyi tədbirlərinə qatılmaq üçün İrəvana gələcək, ya yox? Ermənistan XİN başçısı Türkiyədən ilk növbədə bu suala cavabla qayıtmalıdır.

Ola bilsin, cavab bir müddət konfidensial saxlanılsın, fəqət, o, mütləq olacaq. Türkiyənin yeni prezidenti Nalbəndyanın *(əslində Sərkisyanın)* əsas sualını yəqin ki, cavabsız qoymayacaq - üstəlik, elə bir atmosferdə ki, nazir həm Türkiyəyə siyasi jest olaraq, həm də cavab almaq üçün özü şəxsən Türkiyədədirsə və emissar rolundadırsa.

Reveranslar mübadiləsini, tərəflər arasında son zamanlar müşahidə edilən kövrək ilıqlaşmanı davam etdirmək zərurəti Türkiyə prezidentini Ermənistan XİN başçısını naümid qaytarmamağı diktə edir. Belə bir atmosferin qalıcı olmasında Ərdoğanın özü də maraqlıdır. Onun bu ilin aprelində saxta soyqırımla bağlı erməni xalqına verdiyi başsağlığı hər halda, indiki Türkiyə rəhbərliyinin Gül dönəmində yarımçıq qalmış "futbol diplomatiyası"nı dirçəltmək istəyinin xəbərçisi sayıla bilər. Axı deyirlər, "ən yaxşı təzə - unudulmuş köhnədir..." Bundan əlavə, Türkiyədə Nalbəndyanın "Sürix ortağı", qonşularla "sıfır problem" siyasətinin memarı, tezliklə baş nazirliyə başlayacaq Əhməd Davudoğlu ilə təmasının olacağını da ciddiyə alsaq, bu yöndə gizli də olsa, bir hərəkətliliyin yaranacağı istisna olunmamalıdır.

Bəzi müşahidəçilərə görə, Türkiyə-Ermənistan sərhədlərinin açılması, ardınca isə iki ölkə arasında siyasi münasibətlərin qurulmasına gətirməli olan "futbol diplomatiyası"nın bərpası Amerikanın Güney Qafqazla bağlı "böyük yol xəritəsi"nin tərkib hissəsidir və hamının uduşuna, Rusiyanın isə bölgədən sıxışdırılmasına yönəlib. Odur ki, analitiklər ABŞ hökumətinin, ələlxüsus da Rusiyanın postsovet məkanlı üçün, Güney Qafqaz üçün böyük təhlükəyə çevrildiyi zamanda, bu planı israrla qabağa aparmağa çalışacağına şübhə eləmirlər.

Uduşda isə həm də Türkiyə ola bilər. Ən azından ona görə ki, Ankara bədnam 100 illiklə bağlı beynəlxalq təzyiqlər, Avropa Birliyinin yeni tənələrindən xeyli dərəcədə qurtulacaq və Qarabağ məsələsində İrəvan üçün daha etibarlı vasitəçi-tərəfdaş, Vaşinqton üçünsə böyük bir regionda daha etibarlı "ötürücü" strateji tərəfdaş dövlət ola biləcək. Ermənistanın götürəcəyi dividentlər də bəlli - işğalçı Rusiya ilə "cəhənnəmə birgə getmək" aqibətindən azad olacaq.

Qalır Azərbaycanın bu projedə hansı yer alacağı. Görəsən, rəsmi Bakı Ankaranın yaxın və orta perspektiv üçün siyasi ehtiyaclarından doğan yeni diplomatiyaya dözümlü yanaşacaqmı? Söyləmək çətindir. Amma bir reallıq var ki, Azərbaycan tərəfdən andiçmə mərasimində Ərdoğanı dostu-qardaşı prezident İlham Əliyev deyil, Milli Məclisin sədri Oqtay Əsədov təmsil edəcək.

Bu da 28 avqust törəni ilə bağlı ikinci mübhəm məqam...

❑ Siyasət şöbəsi

# "Avropa Şurası oyuncaq bir qurumdur, çoxdan öz əhəmiyyətini itirib"

**"İndiki mərhələdə Qərbin Azərbaycana qarşı hansısa sərt addım atacağı gözlənilən deyil. Çünki bunun əlamətləri görünmür. Azərbaycandakı vəziyyətlə bağlı ciddi narahatlıq, hansısa təpkilər müşahidə olunmur". "Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu Azərbaycanda üçüncü sektorun təmsilçilərinə qarşı baş verən təqib dalğası, həmçinin jurnalistlərə və siyasi müxalifətə qarşı müşahidə olunan təzyiqlərin qarşılığında Avropa və Amerikanın, eyni zamanda dünyanın demokratik təsisatlarının hansısa addım atıb-atmayacağı barədə fikirlərini bölüşərkən bunları bildirdi.**



**Ərəstun Oruclu:** "Azərbaycanın itirilməsi qorxusu, xüsusilə də Rusiya amili öz sözünü deyir"



**Mehman Əliyev:** "Məsələ sanksiyalara çatmayacaq, daxillə və Qərblə dialoq qaçılmazdır"

Qeyd edək ki, ayrı-ayrı təşkilatlar beynəlxalq qurumlara müraciətlə Azərbaycan hakimiyyətini cəzalandırmaq üçün çağırışlar ediblər. Ə.Oruclunun fikrincə, ola bilsin Qərbin adekvat olmayan münasibəti yay tətili ilə əlaqədardır: "Baş verənlərə müəyyən reaksiyalar olmalıydı, amma bu reaksiyalar demək olar ki, yoxdur". Politoloq güman edir ki, Qərbin sükutuna bir çox amillər təsir edir: "Ən azı ədalətli mövqe ortaya qoymağa maraqlar imkan vermir. Azərbaycanın itirilməsi qorxusu, xüsusilə də Rusiya amili öz sözünü deyir. Eyni zamanda bölgədəki vəziyyət öz təsirini göstərir". Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsinə sədrliyinin artıq 3 ayı geridə qalmaq üzrədir. Gözlənilirdi ki, bu 6 ay ərzində rəsmi Bakı fərqli mövqe tutacaq, ən azı beynəlxalq tribunaya sahibləndiyi bu yarım ildə özünə qarşı təpki və tənqidlərin minimuma endirilməsi istiqamətində addımlar atacaq. Bu mənada Azərbaycan hakimiyyətinin nədən bu fürsətdən yararlanmaq istəməməsi də gündəmin əsas suallarındandır. Ə.Oruclu isə deyir ki, onun əvvəlcədən belə bir gözləntisi olmayıb: **"Çünki hər bir davranışın, yanaşmanın konkret bir əlamətləri olar. Azərbaycan hakimiyyətinin tutduğu yol yüksələn xətt üzrə gedən zorakılıqdır. Dəfələrlə təcrübə göstərib ki, heç bir beynəlxalq təzyiqlər, yaxud üzərinə götürdüyü beynəlxalq öhdəliklər hakimiyyəti bu yoldan çəkindirməyib. Bu dəfə də belə oldu. Odur ki, bunu gözləməyə dəyməzdi".**

Ə.Oruclu AŞPA-nın payız sessiyasında da Azərbaycana qarşı ciddi qərarın qəbul olunmayacağını düşünür: **"Avropa Şurası baş katibinin müraciətini gördük və orada artıq hər şey deyilmişdi. AŞ adlı qurum artıq mənasız bir qurumdur, məlum deyil ki, nədir. Mən heç vaxt bu təşkilat haqqında pozitiv fikirdə olmamışam. Baş verənlərə qurum rəhbərliyinin yanaşması da göstərdi ki, yanaşmam doğrudur. Avropa Şurası oyuncaq bir qurumdur, çoxdan öz mənasını, əhəmiyyətini itirib".**

"Turan" agentliyinin direktoru **Mehman Əliyev** isə hesab edir ki, məsələ sanksiyalar səviyyəsinə gəlib çatmayacaq: **"Tərəflər bir-birini yaxşı başa düşür. Ona görə də daxili dialoq və Qərblə dialoq qaçılmazdır"**. M.Əliyev də baş verən təzyiq dalğasının yay dövrünə təsadüf etməsini məzuniyyətlər dövrü ilə əlaqələndirir: **"İndi yay məzuniyyəti dövrüdür, səfirlər, dövlət başçıları yerində yoxdur. O mənada belə bir vaxtın seçilməsi, məncə, elə-belə deyil. Amma sentyabr ayında fərqli proses başlaya bilər. Hökumətin bəzi gedişləri olacaq".**

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 213 (5922) 26 avqust 2014

# İŞİD Türkiyəyə nə vəd edir?

## Ekspertə görə, bu terror təşkilatı son günlərini yaşayır, amma kürd yaraqlıları ilə bağlı yeni təhlükə gözlənilir

**Qanlı cinayətləri ilə dünyanı neçə müddətdir şokda saxlayan İŞİD-in indi də Türkiyəni hədəfə alması narahatlıqla izlənilir. Özlərini "İraq və Şam İslam dövləti" adlandıran qruplaşmanın Türkiyəyə girməyə hazırlaşdığı barədə ötən həftə "Vətən" qəzeti də məlumat yaymışdı.**




Türkiyə mediasının məlumatına görə, məsələ ilə bağlı Ankara hüquq-mühafizə orqanlarına şok bir tapşırıq göndərib. Tapşırıqda İŞİD terror təşkilatının artıq Türkiyəyə girdiyi və bununla bağlı hazırlıq səviyyəsinin maksimuma çatdırılması bildirilib. Türkiyənin polis-ədliyyə sistemindən yerlərdəki polis idarələrinə göndərilən məlumatda həmin şəxslərin kimliyinin müəyyən edilmədiyi bildirilsə də, sərhədi gizlin keçməyə müvəffəq olmuş terrorçunun fotosu polislərə verilib. Polis işçilərinə tapşırılıb ki, insanların sıx olduğu yerlər, Qərb ölkələrinin səfirlikləri, hava limanları, kütləvi tədbirlərin keçirildiyi məkanlar, dövlət binaları xüsusilə qorunmalıdır. Əslində İŞİD elə hərəkətə keçdiyi ilk günlərdə Türkiyəyə meydan oxuyub. İŞİD üzvləri türkmənlərin kompakt yaşadığı Mosulu hədəfə seçməklə əslində Türkiyəni də hədəf seçdiyini bəyan etmiş oldu. Eyni zamanda Mosulda 28 türk sürücüsünü əsir almaqla Ankaranın əsəblərini yoxlamaq istədi. Görünən budur ki, İŞİD-in sıradan çıxarılması ssenarisi hazırlansa da, onun yerini Türkiyəni də hədəf seçən silahlı kürd təşkilatları tutacaq. Artıq Türkiyənin kürdlər yaşayan bölgələrinin də zəbt olunmasına hazırlıq görüldüyü barədə xəbərdarlıqlar gəlir.

**Politoloq Qabil Hüseynli deyir ki, İŞİD-in təşkilatlanmasında, ilk dəfə onun guya "Suriyaya qarşı döyüşəcək" kimi formalaşdırılmasında Türkiyə də iştirak edib:** "Məsələn, Şanlı Urfada, Hataydakı hərbi düşərgələrdə onlar Əl-Nüsrə, Şam İslam Birləşməsi adı altında fəaliyyət göstərirdilər və Suriya Azadlıq Ordusunun tərkib hissəsi kimi çıxış edirdilər. Ona görə də Türkiyədəki Suriya Azadlıq Ordusunun düşərgələrində bunlara da yer verilmişdi. Yəni bunlar arasında Türkiyənin müəyyən əyalətlərini tanıyanlar var, burada təlim keçiblər, xəstəxanalarda yatıblar və s. Amma Türkiyəyə qarşı hədələr boş şeydir. Çünki İŞİD özünün son günlərini yaşayır və onun sayılı günləri qalıb. Bu qruplaşmanı çökdürəcəklər və son nəfərinə qədər qıracaqlar. Yalnız bir qorxulu cəhəti var ki, onlar partizan müharibəsi formasında, illeqal şərait seçərək silahlı kamikadzelər kimi formalaşa bilərlər. Gizlin yollarla müxtəlif ərazilərə, o cümlədən də Türkiyə ərazilərinə keçib terror aktları törətmələri mümkündür. Bunun da ehtimalı çox aşağıdır. Amma hər halda, həm Türkiyə, həm İraqın özü belə bir ehtimalı nəzərdən qaçırmamalı və hazırlıqlı olmalıdır".

**Q.Hüseynli zənn edir ki, İŞİD-in hədələri artıq tarixin arxa mərhələsində qalmış məsələlərdir:** "Artıq İŞİD tarixin bir epizodu kimi tarixdən silinmək üzrədir".

**R.T.Ərdoğan prezident səlahiyyətlərinin icrasına başlayandan sonra İŞİD-ə qarşı sərt davranacaqmı, yoxsa ehtiyatlı siyasətin davamını müşahidə edəcəyik?** **Q.Hüseynli:** "Son dövrlər Türkiyə nədənsə nə Suriya, nə İraq probleminə, o cümlədən də İŞİD məsələsinə qarışmır. Çünki burada hadisələr çox qarışıq cərəyan edir. Məsələn, yezidi kürdlər silahlandırılır, onların silahlı dəstələri yaradılır. İŞİD-lə mübarizəyə yalnız Şimali Kürdüstan Muxtar Respublikasının peşmərgələri cəlb olunur. Bu gün İraqın iradəsi tamamilə Amerika və İngiltərəyə tabedir. Həmçinin ölkə o qüvvələrin iradəsinə tabe olan şəxslərin prezidentliyi və baş nazirliyi altındadır. Üstəlik də Bərzaninin dəstələrinə müasir silahlar verilməyə başlayıb. Yəni yüngül atıcı silahlardan daha ağır, hücum xarakterli silahlara keçilib". **Politoloq şübhə etmir ki, belə vəziyyət gələcəkdə kürdlərin mövqeyinin güclənməsi Türkiyənin daha real təhlükə ilə üzləşməsinə gətirib çıxara bilər:** "Bu təhlükə var. Ümumiyyətlə, Yaxın Şərqdə baş verən istənilən hadisələrdə, məsələn, İraqa birinci və ikinci hücum zamanı Türkiyənin passiv mövqeyi ucbatından həm türkmənlər əzildilər, az qala sıradan çıxarıldılar, Şimali Kürdüstanın tərkibinə qatışdırıldılar, üstəlik İŞİD də bir tərəfdən qırır, həm də indiki hadisələrdə yezidi kürdlərdən başqa kürdlər demək olar ki, itki vermədilər. Hətta əksinə, kürdlər xeyli qabağa düşdülər. Yəni kürdlər bölgədə söz sahibi olan, bölgənin taleyini həll edən masanın başında oturan və Türkiyəyə meydan oxuyan mövqe tutmuş vəziyyətdədirlər. Həmçinin İraq neftinə ciddi surətdə nəzarət edirlər".

**Bu arada İŞİD üzvü Məhəmməd Əbu Barud Qafqazda İslam dininin əzildiyini iddia edib və Azərbaycana xəbərdarlıq ünvanlayıb: "Bir gün İslam Dövləti oralara qədər gələcək. Bizim üçün Dağıstan, Gürcüstan bişmiş almadır, Azərbaycan isə hazır ət piroqudur və bir gün biz onun dadına baxacağıq". Q.Hüseynli İŞİD-in və ya kürd dövləti yaratmaq iddiasında olanların hələ ki Azərbaycan üçün təhlükə vəd etmədiyi qənaətindədir:** "Onların bir dövlət kimi formalaşmasına ola bilər Amerika bir az göz yumsun, amma "hə" deməz. Almaniya birmənalı şəkildə kürd dövlətinin yaradılmasının əleyhinədir, bilir ki, bu, bölgədə çox böyük sarsıntılara səbəb olacaq. İngiltərənin də ortaya açıq mövqe qoyacağına inanmıram. Amma ən qəribəsi odur ki, Türkiyə tərəfindən səs çıxmır. Türkiyə yalnız neft almaq xatirinə Bərzaninin idarə etdiyi Şimali Kürdüstanı canlandırmaq üçün ona dəstək, pul verir, sərhəd-gömrük məntəqələrini açır, ora işçi qüvvəsi, inşaat briqadaları göndərir. Yəni Türkiyənin Bərzani hökuməti ilə münasibətləri bir tərəfdən beynəlxalq hüquq normalarına ziddir, İraqın vahid bir dövlət kimi formalaşmasına, vahid neft siyasətini həyata keçirməsinə maneçilik törədir. Neft əsasən Kərkükdən, türkmənlərin yaşadığı bölgələrdən çıxır, həmin bölgəni də peşmərgələr, kürd dəstələri ələ keçirib və Kərkük-Yumurtalıq neft xəttinə nəzarət edilir. Türkiyə dünya neft birjalarındakı qiymətlərindən ucuz qiymətə neft alsa da, əslində İraqın bütövlüyünə zərbə vuran kürdləri varlandırır. Mən bilmirəm Türkiyədə bu siyasəti kim hazırlayır, başında kim durur. Amma ölkənin prezidenti, baş naziri var və onlar bu məsələlərdə Türkiyənin strateji maraqlarını nəzərə almalıdırlar".

❑ **Cavid TURAN**

# Qərb Azərbaycana təsirini niyə itirib?



**Hüseynbala SƏLİMOV**

**Ukraynalı siyasətçi A.Turçinov bu yaxınlarda demişdi ki, onun ölkəsi uzağı beş ildən sonra Avropa Birliyinin və NATO-nun üzvü olacaq. Təbii ki, təhlilçilər və siyasi publisistlər onun bu optimizmini bölüşmürlər.**

Ona görə ki, dünyanın özü və onda baş verən siyasi proseslər bir siyasət adamının baxışından daha qəliz görünür. Amma hərdənbir beynəlxalq siyasətə də bir baş vurmaq lazım gəlir. O səbəbdən ki, dünya qəliz olduğu kimi həm də olduqca dinamikdir.

Hazırda Almaniya ilə Rusiya arasında bir soyuqluq müşahidə olunur. Hətta Almaniyanın kansleri publik şəkildə demişdi ki, o, Vladimir Putinə inanmır, o səbəbdən ki, Rusiya prezidenti daim yalan danışır.

Yada salmaq lazımdır ki, bir vaxt Angela Merkel ilə Vladimir Putin arasında olan səmimi münasibətlər Avropada bir sıra proseslərin yolunda əngəl olmuşdu. Gürcüstanın, Moldovanın və Ukraynanın NATO-ya üzv olmasının ən real vaxtında da Angela Merkel bunun əleyhinə çıxmışdı.

Ola bilsin, Ukraynada baş verən proseslər xanım Merkelin fikrini dəyişib. Di gəl, ifrat optimizm üçün də əsas görünmür.

Sentyabrın 4-5-də Uelsdə NATO-nun növbəti sammiti keçiriləcək. Sammit ərəfəsində ən müxtəlif fikirlər səslənir. Amma eyforik ümidlər üçün əsas tapmaq olduqca çətindir.

Bir müddət idi ki, Britaniyanın baş naziri Devid Kemeron sammitin gündəliyini müəyyən etməklə məşğul idi. Mətbuata sızan xəbərlərdən belə bir nəticə hasil oldu ki, Uels sammitində fövqəlyenilik, siyasi təhlilçiləri üçün tamamilə yeni ola biləcək bir hadisə gözlənilmir.

Düzdür, artıq məlumdur ki, Gürcüstan bu sammitdə prezident səviyyəsində təmsil olunacaq. Böyük ehtimalla, elə digər keçmiş sovet ölkələrinin də prezidentləri və çox güman ki, elə Azərbaycan prezidenti də sammitin işinə qatılacaq; ən azı ona görə ki, Azərbaycan prezidenti Avropa siyasətçilərinin qarşısında "öz yolu" olan ölkənin prezidenti və Avropanın enerji təchizatında mühüm rola malik şəxs kimi görünməyi sevir.

Amma artıq məlumdur ki, Gürcüstana, Moldovaya və Ukraynaya "Gücləndirilmiş əməkdaşlıq planı" təklif olunacaq. Əvvəllər isə belə deyilirdi ki, bu ölkələrə Alyansa tam üzv olmaq yolunda sonuncu mərhələ olan "Üzvlük planı" təqdim olunacaq. Bəlkə də bunlar eyni şeydir. Amma o da var ki, Qərb bu üç ölkənin Alyansa tam üzv olmasını bütün vasitələrə yubadır. Bəs səbəb və məqsəd nədir?

Məsələ bundadır ki, NATO üzvlərinin indi bu ölkələrə verə biləcəyi yeganə şey siyasi və iqtisadi dəstəkdir. Bəli, təcavüzə məruz qalan Ukraynaya hər cür siyasi dəstək və müəyyən qədər də maliyyə dəstəyi göstərilir. Məsələn, elə bu yaxınlarda Almaniya bu ölkəyə 500 milyon avro ayırmaq qərarına gəldi. Amma heç kim Ukraynanın, Gürcüstanın və Moldovanın yaşadığı problemləri tamamilə bölüşmək istəmir. Bu ölkələrin üzv olacağı təqdirdə NATO Rusiya ilə münaqişəyə cəlb oluna bilər. Alyans isə təbii ki, bunu arzulamır...

Əgər NATO real təhlükəsizlik təminatları versəydi digər ölkələr də, o cümlədən də Azərbaycan da Blokla bağlı bu vaxta qədərki mövqeyinə baxardı və bəlkə də eyni intensivliklə Alyansa üzv olmağa çalışardı.

Amma belə təminatlar yoxdur. Ölkələr var ki, onlar heç nəyə baxmadan NATO ilə əməkdaşlığa can atırlar, çünki onlar belə hesab edir ki, itirdiklərini artıq itiriblər - necə deyərlər, qaradan tünd rəng olmur...

Onlar düşünür ki, Rusiya ilə oynamaqdansa daha düzgün yol Avropaya və NATO-ya doğru can atmaqdır. Bu yolda ən azı siyasi dəstək qazanmaq və bir qədər də maliyyə dəstəyi almaq mümkündür.

Azərbaycanın maliyyə dəstəyinə ehtiyacı yoxdur. Bilmirik bunu xoşbəxtlik, yoxsa bədbəxtlik kimi yozaq? Amma məsələ bundadır ki, maliyyə müstəqilliyi əldə ediləndən sonra Azərbaycanda heç bir ciddi siyasi-iqtisadi və struktur islahatları aparılmır, yəni Qərb Azərbaycan rəhbərliyinə qarşı özünün demək olar ki, bütün "təsir rıçaq"larını itirib - məhz bunu nəticəsidir ki, ölkədə ağına və bozuna baxmadan təqiblər aparılır, hətta ictimaiyyət və siyasət fəalları həbs edilir.

Məsələnin ən absurd tərəfi isə odur ki, Azərbaycan Avropaya və NATO-ya maraq göstərməməklə Rusiyanı neytrallaşdığını güman edir. Amma reallıqda belədirmi? Təbii ki, yox. Rusiya birmənalı şəkildə Ermənistanı dəstəkləyir və bu siyasətini dəyişmək fikrində deyil. Azərbaycana gəldikdə isə o, yalnız bu ölkənin indiki hakimiyyətinə dəstək verir. Əks təqdirdə, hər prezident seçkisi ərəfəsində Rusiyanın xeyir-duasını almağa ehtiyac olmazdı...

YENİ MÜSAVAT
N 213 (5922) 26 avqust 2014



# İstedadlı, məhsuldar, dalaşqan Əli Əkbər

Xalid KAZIMLI

**Bəri başdan deyim ki, yazıçı Əli Əkbərlə şəxsi tanışlığım yoxdur. Yalnız bir dəfə rastlaşmışıq. O, Müsavat Partiyasının qərargahından dostları ilə birgə çıxırdı, mən qərargaha girirdim. Onun yanında tanıdığım gənclər vardı, onlarla salamlaşdım, görüşdüm. Həmin salamlaşma prosedurunda Əli Əkbərlə də əl tutuşduq. "Salam-salam". Vəssalam. Bir kəlmə də kəsmədik.**

Amma mən onun adını çoxdan eşitmişdim, şəkillərinə görə üzdən də tanıyırdım. Bir ara hamı "Əli Əkbər, Əli Əkbər" deyirdi, onun yazdığı əsərlərdən danışırdı. Əsərlərindən çox öz adı hallanırdı. Çünki qalmaqallı şeylər yazır, danışır, söyür, söyülürdü. Onu ya çox bəyənir, müdafiə edirdilər, ya da kəskin şəkildə bəyənmir, nifrət və inkar edirdilər.

Doğrusu, adı çəkiləndən sonra onun barəsində o qədər mənfi enerjili sözlər deyirdilər ki, adam belə birisinin əsərini oxumağa cəhd etmirdi. Başqaları bəlkə də məhz bu cür anti-reklamdan sonra həvəsə gəlib "bədnam" yazıçının əsərlərinə müraciət edir, bizdə başqa cürdür: mənfi enerji verəcəyi gözlənilən əsəri oxumaqdan imtina etmək.

Ona görə də mən, açığını deyim ki, Əli Əkbərin, içində söyüşlər, arqo ifadələr keçən əsərlərini oxumamışam. Yalnız onun bir hekayəsini - ümumi tualetdə nəcisə bulaşan YAP-çı professorun tragikomik əhvalatını oxuyub təsvir olunan mənzərədən iyrənə-iyrənə gülmüşəm.

Ancaq yazıçının son bir ildə yazdığı və xüsusi olaraq musavat.com-a göndərdiyi hər bir yazının hər sətrini oxumuşam - əvvəlkiləri redaktə gərəyi ilə, sonrakıları maraqdan.

Onu da deyim ki, "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlu yazıçı Əli Əkbərin bundan belə bizə yazacağını, razılaşma əldə olunduğunu deyəndə məni sayt veb-redaktoru olaraq narahat edən yeganə məqam onun yazılarındakı bəzi arqo ifadələrin necə buraxılacağı ilə bağlıydı *(Bizim oxucular o cür ifadələri sevmir və bağışlamır)*. Baş redaktor əmin etdi ki, o, bizə belə şeylər yazmayacaq.

Əli Əkbər sağ olsun, o gündən bu günə hələ bir dəfə də bizi onun yazılarındakı hansısa bir kəlməni dəyişmək zorunda qoymayıb. O qədər səlis, rəvan, ölçülü-biçili, istedadla yazır ki.

Başqa saytlarda, internet resurslarında başqa cür yazır, ancaq məncə, ən gözəl yazılarını məhz musavat.com-da yazır. Bu yazıların içində elələri var ki, gerçək bir publisistika şedevridir və güman edirəm ki, 50, 100 ildən sonra dərsliklərə salınacaq.

Əli Əkbər çox istedadlıdır. Onun qədər enerjili, məhsuldar yazıçı hazırda dünyada yoxdur. Yazı-pozu adamlarına xas tənbəllik ona çox yaddır. Adamın işi yazmaq və oxumaqdır, istirahəti oxumaq və yazmaqdır, hobbisi yazmaqdır, oxumaqdır.

Onun necə böyük erudisiyaya malik olduğunu, geniş mütaliəsini publisistik yazılarından asanca sezmək olur. Geniş təxəyyülü, inkişaf etmiş yumor hissi, kəskin sarkazmı var.

Əli Əkbərin bəzən çığallıq, həyasızlıq kimi görünən açıqlamaları, kəskin yazıları aşıb-daşan enerjisindən, neqativ hesab etdiyi mənzərələrə, haqsız hesab etdiyi ittihamlara dözməzliyindən doğur. Elə bil, o, heç bu dözümlü xalqın nümayəndəsi deyil, hücuma məruz qalan kimi əks-hücuma keçir, söyür, təhqir edir və eyni təhqirlərə məruz qalanda vecinə də almır.

Yazıçının son yazısını da oxumuşam və açığı, heç bəyənməmişəm və bunu onun qələminin səviyyəsinə yaraşdırmıram. Əli Əkbərin həmin yazısı publisistik yazı deyil. Adam sadəcə çəpərlərin o tay-bu tayında dayanıb eyzən söyüşən intriqalı qonşulardan biri kimi davranıb.

Əlbəttə, o deyəcək ki, onu buna vadar edirlər, dinc qoymurlar və cavablarını alırlar. Ancaq yenə də, Avropada ad çıxarmaq istəyən və bunu edəcəyinə, qoca qitənin ən sanballı ədəbi mükafatlarını alacağına inandığım yazıçı vaxtaşırı bu kimi ucuz qalmaqallarda iştirakçı olmamalıdır.

O, bir sözü çox düz deyir: azad yazıçı düşündüyünü yazmalıdır, dəyişən situasiyalarda fikrini dəyişmək sərbəstliyinə, fərqli düşünmək hüququna malik olmalıdır. "Nəsimi" filmində böyük şairimiz də ona vaxtilə yazmış olduğu bir beyti misal gətirən dərvişə "Şair hərdəmxəyal olur" deyə cavab verir. Siyasi səbatlılıq baxımından bu, yəqin ki, zərərlidir, amma Əli Əkbər siyasətçi deyil, yazıçıdır.

Zənnimcə, onun ən böyük üstünlüyü isə keçmişdə buraxdığı səhvləri heç bir kompleks keçirmədən etiraf etməsi, "o vaxt səhv eləmişəm, peşmanam" deyə bilməsidir.

Arzu edirəm ki, Əli Əkbər indən belə yazılarında "kəsici-deşici" ifadələrdən az istifadə eləsin, hiddətini boğsun, enerjisini gözəl bədii və publisistik əsərlər yaratmağa sərf eləsin.

---

**Azərbaycan Kommunist Partiyasının (AKP) sədri Rauf Qurbanov Rusiya kommunistlərinin lideri Gennadi Züqanovla görüşüb. AKP sədri bu görüş, Ukrayna siyasəti, Azərbaycandakı vəziyyət, cəbhə xəttində baş verənlər, hüquq müdafiəçilərinin həbsi barədə "Yeni Müsavat"ın suallarını cavablandırıb.**

# "Hüquq müdafiəçisi niyə Amerikadan maliyyə dəstəyi almalıdır?"

## Azərbaycan Kommunist Partiyasının sədri:
## "Züqanovun iştirak etdiyi plenumda Morninqstarın verdiyi mesajlarla bağlı narahatlığımı dilə gətirdim"



**Rauf Qurbanov:** "Hər şeydə Rusiyanı günahlandırmaq olmaz"

***- Rauf müəllim, Züqanovla görüşün məqsədi nə idi və nələri müzakirə etdiniz?***

- Kommunist partiyalarının beynəlxalq qurum kimi əsas mərkəzi Moskvada yerləşir. Üç aydan bir kommunist partiyalarının icraiyyə komitəsinin iclası və ya plenumu keçirilir. İcraiyyə komitəsinin iyulun 12-də keçirilən plenumunda iştirak etdim. Postsovet ölkələrindən hər bir Kommunist Partiyası ölkəsindəki ictimai-siyasi vəziyyət haqqında məlumat verir. Bu, hesabat xarakterli deyil. Mən də Azərbaycandakı siyasi vəziyyət haqda çıxış etdim.

***- Azərbaycan haqda nə məlumat verdiniz?***

- Züqanovun da iştirak etdiyi plenumda çıxışımda bir məqamı xüsusi dilə gətirdim - Amerikanın ölkəmizdə səfiri olmuş Morninqstarın AzadlıqRadiosunun efirində hakimiyyətə verdiyi mesajı. Səfir səlahiyyət çərçivəsini aşaraq, ölkəmizin daxili işlərinə qarışaraq hökumətə ismarış göndərmişdi.

Ukraynada Maydan hadisələrinin Azərbaycanda təkrarlana biləcəyini söyləmişdi. Çıxışımda qeyd etdim ki, belə bir mesaj məni narahat edir. Çünki Ukrayna hamının gözü qabağındadır. Mən vətənimdə belə hadisələrin olmasını istəmirəm. O nöqteyi-nəzərdən səfirin çıxışı normativ aktlara uyğun deyildi.

***- Səfir iqtidarı insan haqlarına hörmət etməyə çağırmışdı axı?!***

- Azərbaycanda dövlətin öz maraqları var. Amerika isə boşluqdan istifadə etmək istəyir. Demokratiya bayrağı altında öz məqsədlərinə nail olmaq arzusundadır. Necə ki, Ukraynada baş verən hadisələrə yanaşırlar.

Vaxtilə Yanukoviçi beynəlxalq məhkəmə ilə hədələyirdilərsə, indi ölkənin cənubi-şərqində tökülən qanlara, insanların göz yaşlarına göz yumurlar.

Amerika Ukraynanın mövcud hökumətinin həmin bölgədə etdiyi zülmləri görmür. Bu hadisələrə dünya ictimaiyyəti mövqeyini bildirməlidir. Mən də plenumdakı çıxışımda səfirin mesajı ilə bağlı fikirlərimi açıqladım.

***- Amerikanın daxili işlərimizə qarışdığını deyirsiniz, amma Qərbin donor təşkilatlarından qrant alanlar həbs edilir. Buna münasibətiniz necədir?***

- Heç kəsi durduğu yerdə tutmurlar. Əvvəla, sən niyə Qərb, Amerika təşkilatlarından maliyyə dəstəyi almalısan? Amerikanın öz problemi azdırmı, hələ sənə də pul versin? İndiki dövrdə qardaş-qardaşa 100 manat verəndə gözləyir ki, nə vaxt qaytaracaq. Amerikanın 13 trilyon büdcə kəsiri var.

Ancaq açıq şəkildə deyirdilər ki, Ukrayna müxalifətinə 5 milyard pul xərcləmişik. Niyə xərcləmisiniz? O vəsaiti ölkənin sənayesinə investisiya qoyardılar. Hansı məqsədlə müxalifətə 5 milyarda pul verirsən? Sonra da o pulu ölkədən çıxarmağa çalışırsan.

Mən bilmirəm hüquq-mühafizə orqanları həbs edilənlərin fəaliyyətində hansı halları aşkar ediblər. Amma dövlətin maraqlarına zidd hərəkətlər yolverilməzdir. Hüquq müdafiəçisi niyə Amerikadan maliyyə dəstəyi almalıdır? O deməkdir ki, musiqini kim sifariş verirsə, o cür də rəqs edirsən.

***- Qərb təşkilatlarının bu pulu verəndə hansı maraqları olur ki?***

- Niyə İsveçrə, İtaliya qrant ayırmır? Əgər belə ürəyi yanırsa, QHT-lərə yox, iqtisadiyyata pul ayırsın. Fərz edək ki, mənim ailəmə maliyyə dəstəyi verirsən. Sənin nə marağın var? Deməli, bunu ailəni üstümə qaldırmaq üçün edirsən. Həmin sərmayəni dövlətə yatırsınlar. Mən bu cür mövqeyimi ortaya qoyanda hakimiyyətlə uyğunluqda ittiham edirlər.

Ancaq bu, mənim sosialist mövqeyimdir. Xarici skripkaya oynamağı düzgün saymıram. Bizim milli maraqlarımız olmalıdır. Heç bir alman, ingilis səni özündən üstün tutmaz. Amerikanın belə ürəyi yanırsa Qarabağ problemini həll etsin.

Ancaq Amerika Konqresi geri qaytarılmamaq şərti ilə hər il Qarabağa pul ayırır. Bu ölkə Azərbaycanın müttəfiqidir, neft gəlirlərindən ən çox xeyir götürən dövlətdir. Amma tanınmayan, qondarma respublikaya Amerika Konqresi pul ayırır.

***- Sizin Morninqstarla bağlı çıxışınıza Züqanov nə reaksiya verdi?***

- Plenumda Züqanov da buna kəskin etirazını bildirdi, narahatlığını ifadə etdi. Axı Ukraynada olanlardan sonra xalq nə əldə edib ki, Azərbaycanda təkrarlansa burda da xalq nəsə qazansın. Plenumda Ukrayna hökumətinə qarşı birgə bəyanat qəbul etdik.

Bilirsiniz ki, Ukraynada Kommunist Partiyasını bağlayıblar. Xahiş edildi ki, ölkələrimizə qayıdan kimi respublika komitəsi adından Ukrayna rəhbərliyinə müraciət edək. Biz də Kommunist Partiyasının bağlanmasına görə Ukrayna hökumətinə müraciət etmişik.

Yanukoviçi demokratik prinsipləri pozmaqda ittiham edirdilər. İndi 3 milyon üzvü olan Kommunist Partiyasını bağlamaq demokratiya prinsiplərini pozmaq deyilmi? Bu partiyanın 36 deputatı, fraksiyası vardı. Ancaq qanunsuz olaraq fraksiyanı bağladılar. İndi hələ yaydır. Payızda Ukraynada hakimiyyət laxlayacaq. Yaxın gələcəkdə Ukraynada sabitliyi görmürəm.

Azərbaycan isə Ukraynaya taraz münasibətini saxlayır. Gürcüstan kimi okeanın o başından nə desələr, onu danışmır. Azərbaycan öz sözünü həmişə deyir, müstəqil xarici siyasətini yürüdür.

***- Cəbhə xəttində atışma oldu, 13 şəhid verdik. Bunu hakimiyyətin sizin dediyiniz müstəqil xarici siyasətinə görə Rusiyanın təzyiqi kimi qiymətləndirirlər. Sizcə, necədir?***

- Mən bunu təzyiq saymıram. Qərbpərəst siyasətçilər bunu Rusiyanın təzyiqi kimi qiymətləndirirlər. Ən azı Rusiyada 2 milyon azərbaycanlı yaşayır. Haçansa istəsə təsir edə bilər. Bu gün isə Rusiya belə siyasət aparmır. Atəşkəsin pozulması, itki verilməsi ermənilərin iqtisadi blokada şəraitində olması ilə əlaqəlidir. Erməni ictimaiyyətinin iqtisadi problemlərdən fikrini yayındırmaq üçün müharibəyə yönəltdilər. Bu məsələdə Rusiyanın rolunu şişirtmək lazım deyil. Soçi görüşündə də erməni prezidentinə mesaj verildi ki, xalqın başını müharibə ilə qatmaq olmaz, sosial-iqtisadi problemləri həll edin.

Adlarını çəkmək istəmirəm, qərbpərəst politoloqlar isə deyir ki, Rusiya çökməlidir. Rusiya niyə çökür? Hər şeydə Rusiyanı günahlandırmaq olmaz. Bəzi partiya liderləri var ki, Amerikanın qara işini da haqq kimi təqdim edirlər.

Ağlı başında olan siyasətçi məsələyə belə yanaşmaz. Cəbhə xəttində olanlara gəlincə, şəhid olan əsgərlərimizin ailələrinə başsağlığı vermişəm. Həmin şəhidlər bizim müstəqilliyin təminatçısıdır. Onların ruhu Azərbaycanı qoruyur. Şərəfli ölüm hər kəsə qismət olmur. Bir daha Allah onlara rəhmət eləsin.

❑ Emil SALAMOĞLU

YENİ MÜSAVAT
N 213 (5922) 26 avqust 2014

# Qərb-Rusiya savaşında kim udur, kim uduzur?

**"Rusiya ilə Qərb qarşıdurmasında üstün tərəf təbii ki, Qərbdir. Rusiya Ukraynada ən böyük zərbəni özünə vurdu. Bu gün də Ukrayna və Gürcüstanı özünə qarşı qoyub. Halbuki pravoslav olan bu iki xalq əsrlərlə bir-birinə qarşı yaxşı münasibətdə olub. Artıq Gürcüstanda Saakaşvili dövrü başa çatıb. Gürcüstanda yeni gələn iqtidarın dönəmində də görürük ki, Rusiya Gürcüstanla münasibətləri normallaşdıra bilməyib".**

**Bu sözləri politoloq, deputat Rasim Musabəyov** Qərb-Rusiya qarşıdurmasında hansı tərəfin üstünlük qazanması haqda prosesləri şərh edərkən dedi. Politoloq dedi ki, Gürcüstanda baş verənlər Ukraynada da oldu və bunun üstündən asanlıqla keçmək mümkün deyil. R.Musabəyov Rusiyanın bu davranışını yanlış və strateji baxımdan mənafeyinə ziddi siyasət hesab edir: "Rusiya özünü tox göstərməyə çalışır. İndi bu proseslərdə Qərbin udduğunu deməyə çətinlik çəkirəm. Amma Rusiya heç nə qazanmadı. Əslində Qərbin iqtisadi sanksiyaları Rusiyaya ciddi şəkildə ziyan vurur. Rus oliqarxlar nə edəcəklərini bilmirlər.

Amma özlərini tox aparmağa can atırlar. Əslində bilmirlər nə etsinlər ki, pulları sığortalasınlar. Onlar anti-Qərb mövqedən çıxış edirlər, bir tərəfdən də Qərbə tərəf cumurlar. Çünki pulları, evləri, uşaqları Qərbdədir. Bu halda onların davranışı məntiqsiz siyasətdir. Bu sanksiyalarda ən böyük zərbəni də rus xalqı alacaq".

**Ekspert Rusiyaya qarşı SSRİ-yə tətbiq olunan dərəcədə sanksiyalar olmadığını desə də, bununla belə, Rusiyanın Qərblə münasibətləri korlayaraq inkişaf etməsini nonsens sayır:** "Nə olsun ki, Kuba, Şimali Koreya da yaşayır. Ancaq inkişaf getmir. Qərbin investisiyalarından, menecmentlərindən məhrum olmaqla yaşamaq ölkəni geriyə aparır.

Rusiya texnoloji cəhətdən Qərbdən onsuz da geri qalır. Hətta Çin Rusiyanı geridə qoyub. Çin özünü Rusiya kimi aparmır. Onlar anlayırlar ki, Qərblə qarşıdurmaya gedəndə Çin inkişaf edə bilməz. Fərz edirəm ki, Rusiyanın ağlı başına gələcək".

**Qərb-Rusiya savaşının Cənubi Qafqaz poliqonunda kimin güclü tərəf görünməsinə gəlincə, R.Musabəyovun fikrincə, Azərbaycan bazarlığı Moskva ilə etməlidir:** "Cənubi Qafqazda Rusiya ilə heç kəs vuruşmaq istəmir. Rusiya da bu kartdan istifadə edir. Üstəlik, ermənilər onların əlinin altındadır. Amma Azərbaycan da avam deyil.

Bizi təhdid etməklə, cəbhə xəttində gərginlik yaratmaqla Azərbaycanı ələ almaq qeyri-mümkündür. Artıq o mərhələ gəlib çatıb ki, Ermənistanla danışıqlar aparılmamalıdır. Danışıqları yalnız Rusiya ilə aparmalıyıq".

**Politoloq Zəfər Quliyev bu kontekstdə fərqli düşünür. Onun fikrincə, bir neçə il əvvələ qədər bu sual ortaya gəlmirdi. Siyasi şərhçi hesab edir ki, SSRİ-nin süqutundan sonra dünyada "soyuq müharibə", iki qütblülük geridə qalmışdı:** "Amerika birmənalı üstünlüyə malik idi. Dünyada cərəyan edən proseslər Amerikanın rəyi ilə həll olunurdu.



**Rasim Musabəyov: "Rusiya texnoloji cəhətdən Qərbdən onsuz da geridə qalır"**



**Zəfər Quliyev: "Rusiyanın nə siyasi-hərbi, nə maliyyə, nə diplomatik, nə də müasir texnoloji potensialı Amerika ilə rəqabət iqtidarında deyil"**

Ancaq Putin iqtidara gəldikdən sonra Rusiyanın geosiyasi iddiaları yüksəlib. Rusiya Amerikanın dünyadakı hegemonluğu ilə hesablaşmaq istəmir. Rusiya çoxqütblü modelə qayıtmaq istəyir və Moskva Amerikaya deyir ki, özünə bərabər opponent kimi onu qəbul etməlidir".

**Z.Quliyevin sözlərinə görə, Rusiya müasir dünyanın konfiqurasiyasını dəyişmək istəyir:** "Moskva Qərbə deyir ki, onunla razılaşmalıdır. Ukrayna siyasətində də görürük ki, daima iddialarını irəli sürür. Ancaq bu iddialar reallığa əsaslanmır.

Çünki Rusiyanın nə siyasi-hərbi, nə maliyyə, nə diplomatik, nə də müasir texnoloji potensialı Amerika ilə rəqabət iqtidarında deyil. Üstəlik, iqtisadi sanksiyalar ciddi şəkildə təsir edir. Rusiya bu cür rəqabətə davam gətirmək gücünə malik deyil".

**Politoloq güman edir ki, dünya yaxın zamanlarda Qərb-Rusiya qarşıdurmasında Moskvanın açıq şəkildə məğlubiyyətinin şahidi olacaq:** "Həm Ukrayna, həm dünyanın başqa nöqtələrində Amerika ilə rəqabətdə məğlub olacaq. Bu o demək deyil ki, dünya birqütblü olmalıdır və Amerika istədiyini etməlidir. Sadəcə, Rusiya bu rəqabətə hazır deyil".

❑ **Emil SALAMOĞLU**

# Yezidi kürdlərin Qarabağa köçü realdırmı?

## Tahir Süleyman: "Onların ziyalıları ilə yazışmalarımda buna əmin olmuşam ki..."



**Tahir Süleyman**

**İraq və Suriyadakı yezidi kürdləri ermənilər Qarabağa yerləşdirmək istəyir. İslamazeri.az-ın verdiyi xəbərə görə, Ermənistan Yezidi Kürdlər Birliyinin rəhbəri Əziz Tamoyan bildirib ki, Ermənistan hakimiyyəti və qeyri-hökumət təşkilatları yezidiləri köçürmək üçün vəsait də ayırıblar.**

Qeyd edək ki, Azərbaycanın işğal edilmiş ərazilərinə başqa ölkə vətəndaşlarının, xüsusən də ermənilərin və yezidi kürdlərin köçürülməsi hazırda Ermənistanın xüsusi diqqət mərkəzində saxladığı əsas məsələlərdəndir. Artıq Suriyada baş verən məlum olaylar fonunda müəyyən sayda Suriya ermənisi Dağlıq Qarabağa köçürülüb. Onların daha çox Laçın və Zəngilana yerləşdirildiyi bildirilir.

**Bu dəfə isə İraqdan qaçqın düşmüş yezidilər Dağlıq Qarabağda yerləşdirilə bilər. Separatçı rejimin "mətbuat katibi" David Babayan bununla bağlı bildirib:** "Biz hesab edirik ki, baş verənlər həm də erməni xalqına aiddir. Hazırda İraqda yezidi kürdlərlə bağlı baş verənlər faciədir. Biz bunu başa düşürük və bu yaranı onlarla bölüşürük. Yezidlər həmişə bizimlə birgə olublar, Ermənistanda olan yezidi kürdlər heç vaxt ölkənin problemlərinə biganə yanaşmayıblar, Qarabağ müharibəsində də fəal iştirak ediblər. Biz Qarabağ müharibəsinin veteranları olan yezidi kürdlərlə fəxr edirik. Dağlıq Qarabağ hər zaman onları qəbul etməyə və öz ərazisində yer verməyə hazırdır".

Onu da xatırladaq ki, Ermənistanın özündə də yezidi kürdlərinin sayı az deyil. Həmin kürdlər də Ermənistan rəhbərliyinin yezidilərə dövlət ayırmasını tələb edir. Ermənistan yezidiləri hesab edirlər ki, hökumət onların İraqda qırılan soydaşlarına yardım etmək üçün əlindən gələni etmir. İndi isə gözlənilir ki, yaranmış vəziyyətdən istifadə etməyə çalışan İrəvan hökuməti yezidilərin Qarabağa köçünü təşkil etsin. Hazırda əksəriyyəti yezidi kürdlər olan minlərlə adam İraqın şimalında evlərini tərk edərək Suriya ilə sərhəddəki Dohuk bölgəsinə sığınıblar. Belə şəraitdən istifadə edən ermənilər onların işğal altındakı ərazilərimizdə məskunlaşmasına çalışır.

**Azərbaycan Kürdləri İctimai Birliyinin rəhbəri Tahir Süleyman deyir ki, yezidi kürdlərin Qarabağda yerləşdirilməsi ermənilərin çoxdankı məkrli planıdır. Lakin bu plan həyata keçmir:** "Vaxtilə Sovet KQB-sinin əməkdaşı olmuş Vəkil Mustafayevi sonradan Rusiya KQB-si Laçına aparıb ermənilərin planına uyğun addımlar atmasına nail olmuşdu. Həmin şəxs Laçında ermənilərin planı əsasında Kürdüstan qəzasının yaranmasını elan etmişdi. Vəkil Mustafayevin və ona havadarlıq edənlərin çağırışına heç bir kürd əhəmiyyət vermədi. Bir nəfər də olsun kürd gedib münaqişə ocağı olan və ermənilərin işğalı altındakı Qarabağ ərazilərində məskunlaşmadı. Ağlı başında olan heç bir kürd işğal altında olan və hər an dəhşətli müharibəyə səhnə ola biləcək əraziyə köçməz. O cümlədən yezidi kürdlər də ermənilərin işğalı altındakı Azərbaycan ərazilərində məskunlaşmayıblar və məskunlaşmırlar. Onların Qarabağa köç eləməsi ermənilərin arzusudur. Lakin neçə vaxtdır ermənilər bu istəklərini reallaşdıra bilmirlər. İraqda, Suriyada faciəvi vəziyyət yaranıb. Ancaq nə yezidi kürdlər, nə də müsəlman kürdlər bir münaqişə ocağından başqa münaqişə ocağına - Qarabağa köçməzlər. Belə bir köçmə faktı yoxdur. Ermənilər, sadəcə, istəklərini dilə gətirirlər və yezidi kürdləri yalançı vədlərlə həvəsləndirirlər".

**Yezidi kürdlərin ziyalıları ilə əlaqə saxladığını bildirən T.Süleyman əlavə elədi ki, onların ermənilərin işğalı altında olan Azərbaycan ərazilərinə, hətta Ermənistana köçmək fikirləri yoxdur:** "Onların əksəriyyətinin fikri budur ki, beynəlxalq səviyyədə müdaxilə İraqda, Suriyada əmin-amanlıq yaradacaqsa, öz dədə-baba torpaqlarında qalıb yaşayacaqlar. Əks halda, Fransa, Almaniya və digər bir neçə Avropa ölkəsinə köçmələrinə şərait yaradılmasını xahiş edirlər. Yezidi kürdlərin və müsəlman kürdlərin heç biri indiyə qədər nə Ermənistana, nə Azərbaycana, nə Gürcüstana, nə də Rusiyaya bu ölkələrdə yerləşmələrinə şərait yaradılması üçün müraciət etməyib. Separatçıların nəzarətindəki Qarabağa köçməkdən isə ümumiyyətlə, söhbət gedə bilməz. Mən onların ziyalıları ilə yazışmalarımda buna əmin olmuşam. Onlar Azərbaycana normal münasibət bəsləyirlər və Ermənistanı özlərinə dost saymırlar. Ermənistan rəhbərliyi illərdir elə vəziyyət yaradıb ki, bu ölkədə yaşayan yezidi kürdlər kütləvi şəkildə öz ev-eşiklərini tərk edib xarici ölkələrə, Rusiyaya üz tutublar. Yezidi kürdlərə Ermənistanda ögey münasibət var. Nəticədə Ermənistandakı yezidi kürdlərin 70 faizi Rusiyaya və digər ölkələrə köçüb. Azərbaycandan istənilən jurnalist Rusiyaya gedib yezidi kürdlərin aparıcı qüvvələri ilə görüşə və reallığın nədən ibarət olduğunu dəqiqləşdirə bilər. O zaman görəcəksiniz ki, mənim dediklərim tamamilə dəqiq informasiyalardır".

❑ **Etibar SEYİDAĞA**

# "Azərbaycanda yaxın aylarda kəskin qiymət artımı gözlənilir"

## **Vahid Məhərrəmov:** "Ölkə öz tələbatını ödəyəcək qədər məhsul istehsal edə bilmir"



Vahid Məhərrəmov

**"Azərbaycan özünü təmin edə biləcək qədər heç bir adda kənd təsərrüfatı məhsulu istehsal edə bilmir". Bunu modern.az-a aqrar sahə üzrə ekspert Vahid Məhərrəmov deyib. Onun sözlərinə görə, Azərbaycan tərəvəz məhsullarına olan tələbatını nisbətən ödəyə bilir: "Tərəvəz məhsullarına olan tələbatımızın təxminən 95 faizini ödəyə bilirik. Digər məhsullara gəldikdə, Azərbaycan öz tələbatını ödəyəcək qədər məhsul istehsal edə bilmir".**

Ekspert Rusiyanın Avropadan ərzaq məhsullarının idxalına qadağa qoyduqdan sonra məhsul ixracında Azərbaycana üstünlük verməsini ciddi hesab etmir:

"Son zamanlar Rusiyanın dövlət məmurlarının bu ölkəyə ərzaq mallarının ixracında Azərbaycan və Orta Asiya ölkələrinin adını çəkməsi, həmin məmurların düzgün hesablamalar aparmaması ilə əlaqədardır. Düzdür, Azərbaycan əvvəllər Rusiyaya kənd təsərrüfatı məhsulları ixrac edib. Amma bu məhsulların miqdarı çox cüzi olub. Biz Rusiyaya təxminən 200 min ton meyvə-tərəvəz ixrac edirik. Rusiya bazarı üçün bu rəqəm əhəmiyyətli deyil. Rusiyaya məhsul idxalında Azərbaycanın və digər ölkələrin adlarının çəkilməsi məmurların dünya iqtisadiyyatı ilə bağlı məlumatlarının az olmasından xəbər verir".

**V.Məhərrəmovun fikrincə, Rusiyaya ixracın artması daxili bazara çox ciddi təsir edəcək:** "Azərbaycan az məhsul istehsal edir. İstehsal etdiyi məhsulun da bir qismi Rusiyaya gedir. Bu da qiymətlərin çox sürətlə qalxmasına səbəb olub. Azərbaycan adekvat olaraq hansı ölkədən məhsul idxal etsə, həmin məhsulların qiyməti qalxacaq".

**Ekspert düşünür ki, məhsul ixracı ən çox inhisarçılara sərf edir:** "Rusiya bazarlarına ixracın artması nəticəsində kənd təsərrüfatı məhsullarının qiymətlərinin artması istehlakçılarımızın ərzaq üçün daha çox maliyyə vəsaiti ödəməsi ilə nəticələnəcək. Azərbaycanda zirək inhisarçılar var. Onlar digər ölkələrdən respublikamıza kənd təsərrüfatı məhsulları idxal edəcəklər. Bizim istehlakçıların da həmin məhsulu əldə etməkdən başqa yolu qalmır. Ona görə də idxalla məşğul olan inhisarçılar çox asanlıqla bazarlarda kənd təsərrüfatı məhsullarının qiymətlərini qaldıracaqlar".

**V.Məhərrəmovun sözlərinə görə, bu il Azərbaycanda məhsul istehsalına fikir verilməyib:** "Ümumiyyətlə, bu il kənd təsərrüfatı məhsullarının istehsalına fikir verilmədi. Taxıl, yem istehsalı azalıb. Bu da ondan xəbər verir ki, Azərbaycanda heyvandarlıq məhsullarının istehsalı da azalacaq. Bizi yaxın aylarda kəskin qiymət artımı gözləyir".

**"Bəs biz ixraca qadağa qoya bilərikmi" sualını ekspert belə cavablandırıb:** "İndiki halda Rusiyaya edilən ixraca qadağa qoymaq heç bir məsələni həll etməyəcək. Alma, yaxud xurmanın ölkədə qalması hesabına fermerlərə ziyan dəyməsinin heç kimə xeyri yoxdur. Artıq bizim ehtiyacımız olan məhsulların - kartofun, pomidorun bir hissəsi Rusiyaya gedib. Rusiyaya ixrac olunan məhsullara qadağa qoymağın faydası yoxdur. Bunun üçün yeni qanun hazırlanmalıdır. Qiymət siyasəti aparılmalı, idxal-ixrac məsələləri tənzimlənməlidir. Bizdə də belə qanunun hazırlanması uzun müddət tələb edir".

# Neft Fondu Rusiya aktivlərinin dəyərsizləşməsi barədə yayılan xəbərlərə münasibət bildirdi

## "Maliyyə sanksiyaları investisiya portfelinin gəlirliliyinə ciddi təsir etmir"

**Neft Fondu Rusiya aktivlərinin dəyərsizləşməsi barədə yayılan xəbərlərə münasibət bildirib. Azərbaycan Dövlət Neft Fondundan (ARDNF) APA-ya bildirilib ki, ABŞ və Avropa Birliyinin Rusiyaya tətbiq etdiyi maliyyə sanksiyaları Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) qonşu ölkədəki investisiya portfelinin gəlirliliyinə ciddi təsir etmir.**

Verilən məlumata görə, ARDNF suveren fond kimi beynəlxalq maliyyə bazarlarında həyata keçirdiyi investisiyaların qiymətləndirilməsində daim onların uzunmüddətli perspektivini əsas götürməkdədir: "Yəni hər hansı bir yeni investisiya qoyuluşunun qısamüddətli riskləri onun uzunmüddətli gəlirlilik parametrləri fonunda təhlil edilməkdədir".

ARDNF-dən həmçinin bildiriblər ki, hazırda fondun Rusiyaya olan investisiyaları "VTB Bank"ın səhmləri və daşınmaz əmlak investisiyasından ibarətdir.

"Uzunmüddətli gəlirlilik məqsədi daşıyan bu tipli investisiyalar üçün qısamüddətli qiymət dəyişkənlikləri gözləniləndir. Digər tərəfdən, ARDNF ölkələr və aktivlər üzrə kifayət qədər diversifikasiya olunmuş investisiya portfelinə malikdir. Bu səbəbdən Rusiya ilə əlaqəli baş verən son hadisələr ARDNF-nin investisiya portfelinin gəlirliliyinə ciddi təsir etmir", - deyə fondun məlumatında vurğulanıb.

Qeyd edək ki, investisiya siyasətinə uyğun olaraq, investisiya portfelinin diversifikasiyası və uzunmüddətli gəlirliliyinin artırılması məqsədilə ARDNF 2013-cü ildə "Bank VTB" ASC tərəfindən emissiya edilmiş 500 mln. ABŞ dolları həcmində səhmləri alaraq bankın ümumi səhm kapitalında 2,99 faizlik paya sahib olub.

**Qeyd edək ki, bir neçə gün əvvəl "Yeni Müsavat" Neft Fondunun Rusiya aktivlərinin dəyərsizləşməsi barədə məlumat yaymışdı. İqtisadçı ekspert Samir Əliyev bildirmişdi ki, 2014-cü ilin I yarısında Rusiyanın VTB bankının mənfəəti ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,5 dəfə azalaraq 5 milyard rubl olub. Halbuki ekspertlər 10-15 milyard rubl mənfəət gözləyirdilər. VTB bank Dövlət Neft Fondunun səhmdarlarından biridir. Samir Əliyevin sözlərinə görə, Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyaların mənfi təsiri Azərbaycandan yan ötməyəcək:** "Bilirsiniz ki, Avropa Birliyi və ABŞ Rusiyanı sanksiyalar məngənəsinə salıb. Onlardan biri də bank sektoruna tətbiq edilən sanksiyadır. Avqustun 1-dən etibarən ölkənin 5 iri bankının, o cümlədən VTB bankın Avropa və ABŞ bazarlarına çıxışı məhdudlaşdırılıb. Sanksiyanın nəticəsi olaraq bu banklar və onların törəmə qurumları Qərbdən 90 gündən çox olan müddətə borc və səhmdar kapitalı cəlb edə bilməyəcəklər. Adıçəkilən sanksiya Azərbaycanda fəaliyyət göstətən "Bank VTB (Azerbaijan)" ASC-yə də şamil edilir. VTB bankı Rusiyanın ikinci ən böyük bankıdır. Ancaq Azərbaycanda hələ ki böyük paya malik deyil. Bank sektorunda payı təxminən 1 faiz civarındadır. Ötən il bank üçün uğurlu olub, bu il çətin sınaq gözləyir".




**Ekspertə görə, Rusiyadakı VTB bankın mövcud durumu Neft Fondunun aktivlərinə mənfi təsir göstərir.** "Neft Fondu VTB bankın səhmdarlarından biridir. Fond ötən il 500 milyon dollar müqabilində bankda təxminən 2,95 faizlik paya malik olub. Baş verən sanksiyalar fonunda VTB bankının səhmlərinin ucuzlaşması Neft Fondunu zərərə salıb. Neft Fondu VTB bankın səhmlərini alandan sonra onun dəyəri təxminən 5 faiz ucuzlaşıb. Təsəvvür edin, fondun vaxtilə hər birini 4,1 rus qəpiyinə aldığı səhmlərin dəyəri hazırda bazarda 3,9 qəpiyə düşüb. Hətta bir müddət 3,7 qəpiyə qədər ucuzlaşmışdı. Bir tərəfdən səhm dəyərsizləşir, digər tərəfdən rubl ucuzlaşır. Səhmlər alınanda dolların məzənnəsi 31-32 rubl həddində idi. İndi isə 36,2 rubla yüksəlib. Rubl son 1 ildə təxminən 15 faiz, cari ildə 10 faiz ucuzlaşıb. Rusiya Mərkəzi Bankı valyuta üzrə rublun məzənnəsinin yuxarı həddini 43-ə qaldırıb. Deməli, rus valyutasının daha da ucuzlaşması realdır. İlkin qiymətləndirmələrə görə, Neft Fondunun VTB bankdakı səhmlərinə görə itkisi bugünkü tarixə 90 milyon dollar civarındadır. Bu zərərin getdikcə artmaq ehtimalı yüksəkdir",- deyən ekspertin fikrincə, fondun zərəri bununla bitmir. **Onun sözlərinə görə, ümumilikdə fondun 1 milyard dollar dəyərində olan aktivləri hazırda sanksiyaların təsiri altındadır:** "fondun aktivlərində rus rublunun payı 1,3 faizdir. Yəni 16,3 milyard rubl həcmində vəsait ehtiyatlara daxil edilib. Rublun ucuzlaşması həmin vəsaitlərin də "əriməsinə" gətirib çıxarır. Vaxtilə həmin aktivlərin alınması 500 milyon dollar məbləğində vəsait yönəldilsə də bugünkü məzənnə ilə mübadilə etsək, təxminən 450 milyon dollar edər. Görünən odur ki, 1 milyard dollarlıq aktivin 14 faizi, yəni 140 milyon dolları sanksiyanın "yeminə" çevrilib. Sanksiyalar sərtləşdikcə rublun ucuzlaşması davam edəcək". Ekspert qeyd edib ki, Neft Fondu Rusiya iqtisadiyyatına yatırımı dayandırmalıdır. Əsas narahatçılıq da Neft Fondunun yaxın gələcəkdə rus banklarının donoruna çevrilməsinə vadar edilməsidir.

❑ Röya RƏFİYEVA

# Vətəndaş iddia edir, nazirliksə təkzib...

## **Zahir Məmmədov:** "Ya məni normal maaşla təmin etsinlər, ya da sosial yardım versinlər"; **Nazirlik:** "İyula qədər alıb, sənədlərini versin, yenə alsın"

**Nəsimi rayonunda yaşayan Məmmədovlar ailəsi redaksiyamıza şikayət edib. Ailənin başçısı Zahir Məmmədov deyir ki, çox ağır bir vəziyyətdə yaşasalar da dövlətdən ünvanlı sosial yardım ala bilmirlər. O bildirir ki, üç nəfərlik ailə ayda 206 manat əmək haqqı ilə dolanır.**

İxtisası ibtidai sinif müəllimi olan Zahir Məmmədov həyat yoldaşı ilə birlikdə Səbayel rayonunda yerləşən 203 saylı məktəbdə çalışır. Hər ikisi ali təhsilli olan bu insanların biri gözətçi, digəri isə xadimə işləyir: "Ayda hərəyə 103 manat əmək haqqı alırıq, bu isə nə gündəlik çörəkpuluna, nə də kommunal xərclərə bəs edir".

Zahir Məmmədov deyir ki, Nəsimi rayonu, Salatın Əsgərova küçəsi 157, mənzil 17 ünvanındakı ev onun xalasına məxsusdur. Yaşayış şəraiti baxımından minimum tələblərə belə cavab verməyən 20 kvadratmetrlik bu mənzildə Zahir Məmmədov həyat yoldaşı və 14 yaşlı oğlu ilə birgə yaşayır. Bir balaca otaq və kiçik dəhlizdən ibarət evdə rahat hərəkət etməyə imkan yoxdur. Bir tərəfdən də havasızlıq və isti bu dar mənzili dözülməz hala gətirir. Kommunal xərcləri ödəməyə çətinlik çəkən ailə evdə sərinkeşi belə işlədə bilmir.

**Nə evi, nə maşını, nə də normal bir maaşı olmayan Zahir Məmmədov dəfələrlə ünvanlı sosial yardım üçün müraciət etdiyini deyir. Ancaq hələ ki bu müraciətlərin bir nəticəsi olmayıb:** "Ünvanlı sosial yardım almaq üçün dəfələrlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Nəsimi rayon şöbəsinə getsəm də, məni vətəndaş olaraq qəbul edib dərdimi, problemimi dinləyən olmayıb. Sonra məcbur qalıb cənab nazir Səlim Müslümova ərizə yazmışam ki, mənə sosial yardım almaqda kömək etsinlər. Artıq iki ay keçib, ancaq bir cavab gəlməyib".





**Müsahibim deyir ki, dəfələrlə nazirliyin qaynar xəttinə zəng edib, məktubuna cavab almaq istəyib. Ancaq nazirliyin əməkdaşları ona sosial yardım üçün deyil, Məşğulluq idarəsinə iş üçün müraciət etməyi məsləhət görüblər:** "Mən azərbaycanlıyam və bu ölkənin vətəndaşıyam. Bu dövlətin qanunlarına görə, mənim də normal yaşamaq hüququm var. Ailədə iki nəfər çalışırıq, yenə də yeməyə çörək tapmırıq. Ya məni normal maaşla təmin etsinlər, ya da sosial yardım versinlər. Mən heç kimdən pul dilənmirəm, dövlətimdən kömək istəyirəm".

**Zahir Məmmədov deyir ki, dərs ilinin başlamasına bir aydan da az vaxt qalıb, ancaq yeganə övladının məktəbə getməsinə heç bir hazırlıq görə bilməyib:** "Oğlumu normal geyindirib məktəbə yola salmaq üçün mənim 2-3 aylıq maaşım qədər pul lazımdır. Bir aylıq maaşım onun bir məktəbli formasına belə bəs eləmir. Mən də atayam. Bunu edə bilmirəmsə, oğlumun gözlərinə necə baxacağam? Belə getsə, onu bu il məktəbə göndərə bilməyəcəyik".

**Redaksiyamıza daxil olan şikayətlə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətinin katibi Elman Babayevlə əlaqə saxladır. Nazirlik rəsmisinin sözlərinə görə, adıçəkilən şəxs bu ilin iyul ayına qədər ünvanlı sosial yardım alıb:** "Ünvanlı sosial yardım bir il müddətinə verilir. Həmin şəxs bir ildir ki, sosial yardım alır. İyul ayında həmin müddət bitib və biz vətəndaşı xəbərdarlıq etmişik ki, əgər yenidən müraciət etmək istəyirsə, sənədlərini yığıb gətirsin. Ancaq hələ ki o, sənəd təqdim etməyib".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 213 (5922) 26 avqust 2014

**Türkiyədə prezident seçkiləri başa çatdı. Möcüzə baş vermədi. Rəcəb Tayyib Ərdoğan xalqın birbaşa səsverməsi ilə ölkənin prezidenti seçildi. Yeni baş nazir və AKP sədrinin Əhməd Davudoğlu olacağı şübhəsizdir. Belə ki, avqustun 21-də AKP-nin mərkəzi qərargahında partiyanın Mərkəzi İdarə Heyətinin toplantısı keçirilib. AKP Mərkəzi İdarə Heyəti xarici işlər naziri Əhməd Davudoğlunun baş nazir və partiya sədri seçilməsi ilə bağlı qərar qəbul edib.**

**Azər RƏŞİDOĞLU**

# Türkiyə siyasətinə kənardan baxış



55 yaşlı Əhməd Davudoğlu Ərdoğanın yaxın müttəfiqi kimi tanınır. Xarici İşlər Nazirliyindən əvvəl o, Ərdoğanın xarici siyasət müşaviri vəzifəsində çalışıb. Ermənistanla sərhədlərin açılması mövzusunun daha tez-tez gündəmə gətirilməsində adı hallanan yeni baş nazirin gələcəkdə bu məsələni gerçəkləşdirə bilməsi ciddi müzakirə olunur. Odur ki, Ə.Davudoğlunun AKP sədrliyinə gəlişi Azərbaycanda da maraqla izlənilir.

Ə.Davudoğlu "Sürix protokolları"nın memarlarından biri olmasına baxmayaraq, çox ciddi bir diplomat kimi qəbul olunur. Araşdırmaçılar Əhməd Davudoğlunun Türkiyənin baş naziri seçilməsi ilə bağlı hər hansı ciddi dəyişikliyin baş verəcəyini düşünmürlər. Ehtimal etmək olar ki, bu təyinat Ərdoğan xəttinin daha da güclənməsinə gətirib çıxaracaq.

Ə.Davudoğlu Azərbaycanı kifayət qədər yaxşı tanıyır. Bu baxımdan Azərbaycanın əleyhinə hər hansı bir addım atacağı az ehtimal olunur. Digər tərəfdən, bütün gələcək addımlar Ə.Davudoğlunun iradəsindən deyil, ümumi siyasi kursdan asılı olacaq.

Buna baxmayaraq, Ə.Davudoğlunun dönəmində baş nazir səlahiyyətlərinin müəyyən hissəsini prezidentlə bölüşməli olacaq. Digər tərəfdən, Davudoğlu ilə Ərdoğan arasında, Yaxın Şərq, Avropa, Rusiya, ABŞ və Orta Asya siyasətində elə də ciddi fərqlilik yoxdur.

Ə.Davudoğlunun bir baş nazir olaraq daha çox xarici siyasət üzərində fokuslanacağı ehtimal olunur. Daxili siyasətdə, "paralel dövlət"lə mübarizədə Ərdoğanin siyasətinin davam etməli olacaq Davudoğlu özünü daha çox diplomatiyada sınamalıdır.

AKP siyasi müstəviyə yeni bir lideri gətirir. CHP və MHP-nin lider problemi yaşadığı bir zamanda AKP daha iki liderin - Yigit Bulut və Numan Kurtulmuşun potensialından da istifadə etmək fikrindədir.

Lakin növbəti parlament seçkiləri AKP üçün sınağa çevrilə bilər. Əgər seçkilər 2015-ci ildə keçirilərsə, AKP üçün seçici səslərini itirmək qorxusu yaranır.

Parlament seçkilərinə qədər ABŞ və bir sıra Avropa ölkələri qondarma "erməni soyqırımı"nı tanısalar, AKP millətçi kəsimin dəstəyini itirə bilər. Odur ki, Davudoğlunun "Surix protokolları"nı reallaşdırmaqla bunun qarşısını almağa cəhd edəcəyi də ehtimal edilir.

Qərblə ciddi problemlər yaşayan Türkiyə diplomatiyası üçün "erməni təlsi"ndən qurtulmaq elə də asan görünmür. Yaxın aylar ərzində Ankara Yaxın Şərq və Dağlıq Qarabağ siyasətində yeni taktiki gedişlər etmək zorundadır.

Türkiyədə baş verənlər onu sübuta yetirdi ki, ölkə siyasi sistemində liberal partiyaların ciddi problemi mövcuddur. Doğru Yol və Ana Vətən kimi partiyaların fiaskosu liberal ideyalara da ciddi zərbələr endirdi. Bu elektoratın səsi həlledici ola bilər.

Milliyətçi Hərəkat Partiyası millətçi və daha çox sosial ədalət prinsipinə yaxın şüarları ilə liberal elektorata iddia edə bilmir. Cümhuriyyət Xalq Partiyası sol mərkəzçi olduğuna görə liberalların dəstəyindən məhrum olub.

AKP özünü sağ mərkəzçi elan etsə də, daha çox solçu, eyni zamanda, mötədil dinçi təşkilat kimi tanınır.

Xarici siyasətdə AKP-nin bir sıra problemləri mövcuddur. Bu problemlər də seçici səsinə təsir göstərə bilər. İraq türkmənlərinin hüquqlarını müdafiə edə bilməyən Ərdoğan İŞİD terroru qarşısında özünü rəqibdən daha çox, müttəfiq kimi aparır. Baş verənlər "kürd kartı"nın işə düşməsinə rəvac verir. "Müstəqil Kürdüstan"ın yaradılması ideyası bəzilərinin qənaətinə görə reallaşmaq üzrədir. Bu isə MHP-nin "çörəyinə yağ sürtür". Bu dalğada MHP yenidən özünü milli xilaskar kimi təqdim edə bilər. MHP parlament seçkilərinə yeni liderlə qatıla bilsə, şansları daha çox ola bilərdi...

# Ferquson olayları ABŞ hökumətini qınaq obyektinə çevirib







## Amerika məsələdə Türkiyədən kömək istəyib; **Vəfa Quluzadə:** "ABŞ nə qədər böyük və güclü dövlət olsa da, zəif nöqtələri də var..."

**Avqustun 9-da ABŞ-ın Ferquson əyalətində afroamerikan bir gəncin 6 polis gülləsi ilə həyatını itirməsinin ardından başlayan etiraz aksiyaları genişlənir. Bu hadisələrdən dolayı ABŞ prezidenti Barak Obama tətilini yarıda kəsərək Ağ Evə geri dönüb. Etiraz aksiyası Nyu-Yorka da sıçrayıb. Şəhərdə etirazçılarla polis arasında qarşıdurmalar qızışıb.**

Obama hərbçilərin müdaxiləsinin vəziyyəti daha da gərginləşdirməməsi üçün onların hərəkətinə nəzarət edilməli olduğunu deyib. Bundan başqa, prezident baş prokuror Erik Holderi Ferquson şəhərinə göndərib.

Türkiyə mediasında yazılan xəbərə görə, Ferqusondakı hadisələri yatırmaq üçün müxtəlif həmlələr edən ABŞ rəsmiləri son olaraq Türkiyədən kömək istəyib.

Türkiyədəki Gəzi hadisələri zamanı böhranı idarə edən qrupun başında olan və hadisələrin daha çox böyüməsinin qarşısını alan baş nazirin müşaviri Ertan Aydınla əlaqə saxlayan Ağ Ev rəsmiləri onun təcrübələrindən istifadə etmək və taktiki məsləhətlər almaq üçün danışıblar. Digər tərəfdən, hadisələrdə etirazçıların polis tərəfindən döyülməsi və həbsi, ardınca xarici ölkə jurnalistlərinin saxlanılması bir çox dövlətlərin və beynəlxalq təşkilatların da narazılığına səbəb olub.

İnsanların sərbəst toplaşmaq və ifadə azadlığı hüququnun pozulması səbəbilə ATƏT və "Freedom House" təşkilatı ABŞ-ın bu hərəkətini pisləyən bəyanat veriblər. Ötən gün isə insan haqları məsələsinə görə ABŞ hökumətinin hər zaman qınaq obyekti olan İran hökuməti bu dəfə əks-təpki göstərib. İran Məclisi Ferqusonda silahsız bir zənci gəncin polis tərəfindən öldürülməsindən sonra başlayan hadisələrə kəskin formada müdaxilə etdiyi üçün ABŞ-ı qınayıb. İran İslami Şura Məclisinin millət vəkilləri silahsız zənci gəncin vurularaq öldürülməsindən sonra başlayan sülh etiraz nümayişlərinə edilən müdaxilələrin dayandırılmasını tələb edib, qaradərili xalqa qarşı tətbiq edilən ayrı-seçkiliyin insan hüquqlarının açıq pozuntusu olduğunu vurğulayıblar.

Qeyd edək ki, bir neçə gün öncə Azərbaycanda da iqtidar mediası "dünyaya demokratiya dərsi keçən ABŞ hökuməti" etirazçılara qarşı sərt addımlar atmaqda qınamışdı.

**Musavat.com-a açıqlamasında Amerikada baş verən hadisələri dəyərləndirən politoloq Vəfa Quluzadə isə ABŞ hökumətinin tezliklə bu iğtişaşların öhdəsindən gələcəyi qənaətindədir:** "Amerika çox güclü dövlətdir. Ancaq buna baxmayaraq, orada da çox güclü daxili ziddiyyətlər var. Amerikada varlılarla kasıblar arasında böyük uçurum mövcuddur. Bundan əlavə, bu ölkədə həmişə ağlarla qaralar arasında irqçilik zəminində münaqişələr olub. Amerikanın elə bölgələri var ki, orada yoxsulluq səviyyəsi dəhşətli vəziyyətdədir. Ona görə də Amerikada bu cür ziddiyyətlər, sosial partlayışlar mümkün haldır və bu baş verdi. İndi əsas məsələ odur ki, bunun bütün Amerikaya yayılmasının qarşısı alınsın. Amerika nə qədər böyük, nə qədər güclü dövlət olsa da, onun da zəif nöqtələri var və bu nöqtələr münaqişəyə gətirib çıxardı".

**Amerika dövlətinin bütün dünyada demokratiyanın simvolu olaraq görülməsinə gəlincə, Vəfa Quluzadə bildirdi ki, ABŞ demokratiyası təkcə Amerika cəmiyyəti üçün faydalıdır:** "Amerika demokratiyası yalnız özünün milli maraqlarını təmin edir. Amerika öz siyasi sistemini dünyaya yaymaq istəyir. Necə ki, vaxtilə Sovet İttifaqı kommunist rejmini bütün dünyaya yayırdı, Amerika da o cür. Gəlin özümüzü aldatmayaq, belə məsələlərə soyuqqanlı yanaşaq. Sovet hökuməti dağılanda bizim cəmiyyətdə çox sadəlövh bir fikir yarandı ki, Amerika bütün dünyaya demokratiya paylayacaq və hamı xoş günə çıxacaq".

**Vəfa Quluzadə ABŞ-da baş verən hadisələrin inkişafı ilə bağlı optimist olduğunu bildirdi:** "Mən hesab etmirəm ki, bu hadisələr Amerikanı yıxacaq. Belə düşünmək sadəlövhlük olar. Amerika bu hadisələrin öhdəsindən gələcək. Üstəlik, Obama özü Afrika əsilli amerikalıdır, o bu məsələləri həll edə bilər. Ancaq baş verənlər heç bir ölkəyə haqq vermir ki, demokratiya prinsiplərinin əleyhinə çıxmağa bəhanə tapsın. Demokratiya elə bir şeydir ki, başqa dövlətdən gəlməməlidir. Demokratiya o zaman yaxşı nəticə verir ki, xalq özü ona nail olsun. Demokratiya xalqın yaratdığı doğma sistem olmalıdır. Ona görə də Amerikadan demokratiya gözləməyə dəyməz".

**Əlavə edək ki, Ferquson olayları ilə bağlı ABŞ-ın Azərbaycandakı səfirliyi musavat.com-un sorğusuna cavab verərək bəyanat yayıb. Bəyanatda deyilir:** "Amerikanın Missuri ştatının Ferquson şəhərində baş verən və cəmiyyətimizin daxilində olan çağırışları əks etdirən hadisələr amerikalıları kədərləndirir. Lakin biz diqqəti yaranan məsələlərin həlli üçün istifadə etdiyimiz üsullara çəkmək istəyirik. Biz bu kimi məsələləri açıq müzakirələr, azad medianın hesabatları və həmçinin, ədalətli və şəffaf hüquq prosesi yolu ilə həll edirik. İrqçilik, habelə polis tərəfindən istifadə olunan taktikalar hazırda Birləşmiş Ştatlarda açıq müzakirələr mövzusudur. Bu kimi müzakirələr Amerikanın bərabərlik və ədalət ideyalarının əldə olunması, ümumilikdə Amerika demokratiyası ideyası üçün vacibdir. ABŞ-ın baş prokuroru Erik Holder bazar ertəsi Ferqusonda insan haqlarına dair aparılan federal istintaqda əldə edilən irəliləyişlər barədə prezident Barak Obamaya etdiyi məruzədən sonra deyib: "Mən prezidentə məlumat verdim ki, Ədliyyə Departamentinin bütün resursları Maykl Braunun ölümünün araşdırılması üçün aparılan insan haqları federal istintaqına yönəlib. Bu gün 40-dan çox Federal Təhqiqatlar Bürosunun agenti Maykl Braunun gülləyə tuş gəldiyi rayonda təhqiqat işləri aparıb. Nəticə etibarilə bir neçə yeni dinləmələr həyata keçirilib".

**Nərgiz LİFTİYEVA**



## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**

**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

## Elan

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**


# Bakıdakı "Ebola palataları"ndan reportaj

**Afrikanın bir neçə ölkəsində yayılan və artıq sərhədləri aşan dəhşətli Ebola virusu ilə bağlı təşviş artır.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) son məlumatına görə, Ebola qurbanlarının sayı artıq 1100 nəfəri ötüb. Ölümcül virusa yoluxanların sayı isə 2000-ə yüksəlir.

Artıq bütün dünya Ebolaya qarşı səfərbərlik elan edib. Azərbaycanın Səhiyyə Nazirliyi də Ebola virusu ilə bağlı mübarizəyə qatılıb. Səhiyyə nazirinin müavini Abbas Vəlibəyov Ebola virusu ilə bağlı əmr imzalayıb.

Virusa qarşı profilaktik və əks-epidemik tədbirlərin gücləndirilməsi, eləcə də bu xəstəliyin ölkəyə keçməsinin qarşısının alınması məqsədilə tədbirlər müəyyənləşdirilib. Ebolaya yoluxmaqda şübhəli bilinən şəxslər Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunda yaradılmış xüsusiləşdirilmiş şöbəyə yerləşdiriləcək.

Virtualaz.org saytının müxbirləri bu dəhşətli virusun Azərbaycana keçmə ehtimalını və xəstəliklə mübarizə üçün xüsusiləşdirilmiş şöbədə yaradılmış şəraitli yerindəcə öyrənib.

**Qeyd edək ki, 8 palatadan ibarət şöbə 2006-cı ildə yaradılıb. Şöbənin müdiri Sevda Mustafayevanın sözlərinə görə, şöbə yenidən qurulub və artıq virusa yoluxan bütün xəstələri qəbul etmək üçün şəraitləri var.**

"Bu şöbədə ilk dəfə "quş qripi" virusuna yoluxan xəstələri müalicə etmişik. Sonradan "donuz qripi" virusuna yoluxmaqda şübhəli bilinənlər də şöbəyə yerləşdirildi. 2008-2009-cu ildə xəstələrimiz olub. Lakin son illər ölkədə epidemioloji vəziyyət sabit olduğundan xəstə qəbul etməmişik" - deyə S.Mustafayeva virtualaz.org saytına açıqlamasında bildirib.

Şöbədə hər palataya bir çarpayı qoyulub. Geyinib-soyunma, sanitar qovşaq ayrıdır. Palataların qapıları və burada quraşdırılan aparatlar da diqqət çəkir. Şöbə müdiri deyir ki, xəstələrin ətraf mühitdən təcrid edilməsi üçün süni ventilyasiya aparatı quraşdırılıb. Bundan əlavə, hər palatada süni nəfəs aparatı var. Ayrıca palatalarda monitorlar və xəstəyə nəzarət edəcək aparatlar qoyulub.

**S.Mustafayeva hava-damcı yolu ilə keçən təhlükəli viruslara yoluxmuş xəstələrin müalicəsi üçün dərmanla təchiz edildiklərini söylədi:** "Bu şöbə ağır və yüksək patagen viruslar üçün nəzərdə tutulub. Burada hava-damcı yolu ilə ağır viruslara yoluxanları müalicə edirik. Doğrudur, hələlik Ebola virusuna qarşı vaksin və ya hansısa dərman yoxdur. Lakin biz qabaqlayıcı tədbirləri görürük, hər ehtimallara hazırlaşırıq".












**Bəllidir ki, Ebola xəstələrlə təmas nəticəsində yayılır. Bir çox həkimlər Ebolaya yoluxanları müalicə etməkdən imtina edib. Amma xüsusi şöbədə çalışanların Ebola qorxusu yoxdur.**

**Bunu da Sevda Mustafayeva deyir:** "Bizim şöbədə həkim və tibb bacılarından ibarət 10 işçimiz var. Burada çalışanlar xüsusi təlimlər keçiblər, onlara viruslu xəstələrə qulluq qaydaları öyrədilib. Əməkdaşlarımız xüsusi təhlükəli virusdan qorunma yollarını bilirlər. Xəstənin təmasda olduğu əşyaların dezinfeksiyası, yataqların dəyişdirilməsi, təmizlənməsi qaydalarını öyrənmişik, amma daim məlumatları yeniləyirik.

Bundan əlavə, Səhiyyə Nazirliyi şöbəni xüsusi geyimlər, maskalar, eynəklər, dezinfeksiya aparatları, dərmanlarla təmin edir. Ebolaya yoluxduğu ehtimal edilən xəstələrə sintomatik yardımlar edilməsi üçün bütün dərmanlarımız var".

**Virusun qeydə alındığı ölkələrə səyahət edən və ya belə xəstələrlə təmasda olanlar mütləq həkimə müraciət etməlidir.**

**Şöbə müdiri dedi ki, yüksək hərarət virusa yoluxmanın ilk göstəricisi ola bilər:** "Xəstəliyə yoluxanlarda yüksək hərarəti, əzələ-sümük ağrısı, ürəkbulanma, qusma, ishal, bədəndə suyun tükənməsi müşahidə edilir. Qanda və digər orqanlarda dəyişikliklər olur. Amma xarici ölkələrə səyahət etməyənlər, belə xəstələrlə kontaktda olmayanlar narahat olmamalıdır. Bizə gətirilən xəstələr laboratoriyada müayinə olunurlar. Kəskin virus infeksiyalarının müayinəsi üçün analizlər Respublika Taun Əleyhinə Stansiyaya göndərilir. Bizim şöbənin xüsusi konteynerləri var. Stansiyaya göndərilən qan və ya digər analizlər xüsusi qablarda daşınır. Yenə də qeyd edim ki, narahatçılığa əsas yoxdur, Azərbaycanda Ebola virusuna yoluxma qeydə alınmayıb".

**Şöbə müdiri Ebolaya yoluxanlar arasında ölüm faizinin yüksək olmasının xəstəliklə mübarizə aparılan ölkələrin həyat səviyyəsi ilə bağlı olduğunu da deyib:** "Ebola virusu ilk dəfə Afrika ölkəsində aşkarlanıb. Virusun meymun və yarasalardan insana keçdiyi deyilir. Lakin xəstəliyin ən riskli tərəfi Ebolanın insandan insana yoluxmasıdır. Virus qan, nəcis, sidik və digər ifrazatlarla yayılır. Amma virusa yoluxanların sağalma ehtimalı da var. Sadəcə olaraq, xəstəliyin erkən dövrdə aşkarlanması və müalicə məqsədilə görülən tədbirlər rol oynayır. Ümumiyyətlə, təkcə Ebola virusu ilə bağlı vəziyyət deyil, digər viruslar da göstərdi ki, xəstəliklərlə mübarizədə ölkələrin yaşayış səviyyəsi, tibbi inkişafı, müalicənin effektliyi öz təsirini göstərir. Azərbaycan səhiyyəsi inkişaf edib, istənilən xəstəliklə mübarizə imkanlarımız var, dərmanlarla təminat yüksək səviyyədədir. Amma ölüm faizi yüksək olan ölkələrin səhiyyəsinin inkişafı göz önündədir".

**S.Mustafayevanın fikrincə, Ebola ilə bağlı təşvişə əsas yoxdur:** "İstənilən virusun yayılmasının qarşısını almaq üçün profilaktik tədbirlər görülür. Ebola virusunun Azərbaycana keçmə ehtimalı yoxdur. Buna baxmayaraq, Səhiyyə Nazirliyi tədbirlər görür. İnsanlar yalnız Ebolaya görə deyil, adi qripdən də qorunmalıdır. Bunun üçün şəxsi gigiyenik qaydalara əməl etməlidirlər. Əllərin gigiyenası və təmizliklə xəstəliklərdən qorunmaq mümkündür".


*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

✓ *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
✓ *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
✓ *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
✓ *Əla tələffüz və güvənlə danışmaq*
✓ *Real ingiliscə söhbətlər*

BONUS english EXPLOSION *dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

# Qobustan həbsxanasında dustaqlar özlərini doğradılar

## Məhkumlar yeni rəisin qaydalarına etiraz olaraq intihara cəhd ediblər; şok təfərrüatlar var

**Qobustan həbsxanasında 6 nəfər intihar məqsədilə özünü doğrayıb. "Qafqazinfo"ya daxil olan məlumata görə, həbsxananın yeni rəisinin sərt davranışlarına etiraz edənlər əsasən qarın və qol nahiyələrini kəsici alətlərlə kəsib və doğrayıblar.**



Onlardan birinin vəziyyətinin ağır olduğu bildirilir. Özlərinə qəsd edənlərdən yalnız ikisinin adı məlumdur. Bunlar Mirzə Əliyev və Şahin Məlikovdur.

Sayt yazıb ki, Qobustan həbsxanasının rəisi keçən ay dəyişdirilib. Məhbus yaxınlarının bildirdiyinə görə, yeni rəis Fikrət Qafarov məhbuslarla sərt şəkildə davranır. Onun həttа məhbusların üstünə tez-tez itləri qısqırtdığı da iddia edilir.

Azinform.az isə 6 nəfər məhkumun intihar məqsədilə özünü doğraması ilə bağlı yayılan informasiyalar istiqamətində araşdırma aparıb. Saytın araşdırması zamanı məlum olub ki, bəzi məhkumların həbsxanada səs-küy salması məhz yeni təyin olunan rəisin xarizmatik xüsusiyyətləri ilə bağlıdır:

"Fikrət Qafarov cinayətkar aləmə qarşı ən sərt mövqedə olan rəislərdən sayılır. O, Qobustana 1 saylı "zon"dan təyinat alıb. Ötən əsrin ortalarından həmin "zon" oğru qanunları ilə idarə edilirdi. Məhz Fikrət Qafarov rəis təyin edildəndən sonra həmin müəssisədə "polojeniya" ləğv edildi. Təbii ki, bu, böyük risk və cəsarət tələb edir.

Fikrət Qafarovun digər üstün cəhətlərindən biri də narkotiklərə qarşı amansız mübarizə aparmasıdır. Məhz bu səbəbdəndir ki, Qobustanda olan məhkumlar yeni rəisə qarşı bu cür kampaniyalar keçirməyə cəhd edirlər,"- deyə sayt yazıb.

**Sayta açıqlama verən mənbənin sözlərinə görə, Qobustan həbsxanasında nisbətən çətin kateqoriyalı məhkumlar cəza çəkir:** "Oranın spesifikası "zon"larda rejim qaydasına əməl etməyənləri tərbiyələndirməkdən ibarətdir. Qobustanda hər zaman "obşaq" qurumu olub. Artıq məhkumlar bilir ki, Fikrət Qafarov olan yerdə "obşaq"dan söhbət belə gedə bilməz.

Özünə xəsarət yetirənlər isə 6 nəfər yox , iki nəfərdi. Mirzə Əliyev və Şahin Məlikov adlı məhkumların özünü doğramaq istəməsi isə rəislə bağlı deyil.

Oğru dünyasının məlumatlarının əks olunduğu xəbər *("praqon" deyilən kağız)* məhz həmin adamların əlindən alınaraq həbsxananın əməkdaşları tərəfindən götürülüb.

Oğru qanunlarına görə, bunun bədəlini ödəmək həmin məhkumlar üçün ağır olacaq. Bu səbəbdən də məhkumlar oğru dünyası qarşısında günahlarını yumaq istəyirlər. Bax, məsələnin əsl mahiyyəti bundan ibarətdir".

Məlumata görə, "praqon" ələ keçib və bundan məsuliyyətli olan məhkumlar intihara cəhd ediblər. Həbsxanada "praqon"un əldən verilməsi yaxşı hal sayılmır. O da söylənir ki, Azərbaycan həbsxanalarında "polojeniya", "obşaq" istisna yerlərdə qalıb.

Hadisə ilə bağlı "Qafqazinfo" Penitensiar Xidmətin mətbuat xidməti ilə əlaqə saxlayıb. Mətbuat xidmətindən bildiriblər ki, onlara belə bir məlumat daxil olmayıb.

❑ E.SALAMOĞLU



# Bakıda ana körpəsi ilə küçədə gecələyir

**Binəqədi rayon Biləcəri qəsəbəsində ana azyaşlı uşağı ilə birgə küçədə gecələyir. ANS TV-nin məlumatına görə, Binəqədi rayonu Biləcəri qəsəbəsi Natiq Həşimi küçəsində bir ailədə baş verən münaqişə azyaşlı uşağın gecəni küçələrdə keçirməsinə səbəb olub. Hadisə zamanı ailə başçısı Şamil Manafov həyat yoldaşı Elza Balabəyova və övladı Müşfiqi evdən qovaraq onları əşyalarilə birgə küçəyə atıb.**

Ana və oğlu artıq 5 günə yaxındır ki, evlərinin qarşısında yaşamağa məcbur olub. Balaca uşaq və onun anası bu müddət ərzində qonşuların köməkliyi ilə aclığa və susuzluğa qalib gələ biliblər. Hər kəs əlinə keçən yemək-içməyi bu insanlarla bölüşməyi özünə borc bilsə də, ailə başçısı üzərinə düşən vəzifəni yerinə yetirmək istəmir.

Elza Balabəyova müsahibə zamanı deyib ki, həyat yoldaşı qapını üzünə bağlayıb getsə də qayınatası evdədi. Ahıl yaşlı kişi isə nəvəsinin göz görə-görə günlərlə küçədə gecələməsinə biganə qalır.

Bir müddət keçəndən sonra isə hadisə yerinə Binəqədi Rayon Polis İdarəsinin 6-cı polis bölməsinin əməkdaşları da gəldi. Polislər də ev sahibini nə qədər dilə tutsalar da, o, qadını və uşağını içəri baraxmayıb. Bu səbəbdən də Elza Balabəyova və onun azyaşlı uşağı izahatının alınması üçün polis bölməsinə aparılıb.

Bu müddət ərzində isə balaca Müşfiq ətrafdakı səs-küyə və ədalətsizliyə baxmayaraq artıq anasının qucağında şirin yuxuya getmişdi. Görəsən, bu günahsız körpəyə belə acınacaqlı günlər yaşadan insanlar necə, gecə gözlərini yuman zaman şirin yuxuya gedə bilirlərmi?




# Təhsil Nazirliyindən bağlanmış türk liseyləri ilə bağlı növbəti açıqlama...

**"Sabiq "Çağ Öyrətim" şirkətinə daxil olan məktəb və liseylərdə təhsil almış şagirdlərin yaşadıqları ərazidəki, eləcə də digər bölgələrdəki arzu etdikləri məktəblərə qəbulu prosesi hazırda davam edir. Bütün şagirdlər məktəblərə yerləşdiriləنə qədər proses davam edəcək. Bu vaxta kimi 1000 nəfərdən artıq şagird müvafiq məktəblərə dəyişdirilib".**

Bunu Təhsil Nazirliyindən modern.az-ın sorğusuna cavab olaraq bildiriblər.

Qeyd edək ki, əvvəllər "Çağ Öyrətim" şirkətinə (Beynəlxalq Tədris Mərkəzi) daxil olan məktəb və liseylərdə təhsil alan şagirdlərin bəziləri hələ də digər məktəblərə köçürülməyib.

Onların valideynləri türk məktəblərinin bərpasını istədiklərini və avqustun axırına qədər gözləyəcəklərini bildiriрlər.

Təhsil Nazirliyindən bildiriblər ki, köçürülməmiş şəxslər istənilən vaxtı məktəblərə yerləşdirilmə üçün nazirliyə müraciət edə bilərlər.




# İvanovka susuz qalıb

## "Nikitin" kolxozunun sədri: "Maşınlarla su gətirməkdən təngə gəlmişik"

**İsmayıllının məşhur İvanovka kəndi susuz qalıb. Yerli sakinlər redaksiyamıza xəbər veriblər ki, kəndə köhnə boru xətti ilə normal su gəlirdi. Ancaq indi nə köhnə, nə də ötən il çəkilən yeni su xəttindən kəndin su təchizatını təmin etmək mümkündür.**



Sakinlərin sözlərinə görə, yayın qızmar günlərində kənd camaatı susuzluqdan əziyyət çəkir. Yeni su xəttinin çəkilməsi üçün ölkə başçısının sərəncamı ilə dövlət büdcəsindən birinci dəfə 4 milyon, ikinci dəfə 3,8 milyon manat vəsait ayrılıb.

Amma kəndin su maşınları, yanğınsöndürən maşınları kolxozçulara su verirlər. Mal-heyvanı suvarmaq, digər işlərini görmək üçün su qıtlığı çətinliklər yaradır. Sakinlər sual edirlər ki, köhnə su xətti ilə kəndə gələn su necə olub, suyun mənbəyimi itib:

"İkincisi, dövlətin ayırdığı 7,8 milyon manat vəsait hesabına çəkilən su xətti niyə fəaliyyət göstərmir? Çəkilişə rəhbərlik edən qurumların, Maliyyə Nazirliyinin nümayəndələri bu saitin hara xərclənməsi ilə maraqlansalar yaxşı olar. Biləк ki, bu pullar və su boruları hara gedib. Yayda su problemi yaşamaq nə deməkdir hamı bilir. Su maşınları ilə nə qədər su əldə eləmək olar? Birdəfəlik su xətti çəkilsin canımız qurtarsın".

Sakinlər xahiş edirlər ki, problem tezliklə həllini tapsın. "Nikitin" kolxozunun sədri Nikolay Dubrovin problemi işıqlandıran axar.az ttp://axar.az/-a məlumatı təsdiqləyərək əlavə edib ki, bu çətinlik həmişə olub: "Son illər daha çox əziyyət çəkirik. Maşınlarla su gətirməkdən təngə gəlmişik. Ancaq kəndi su ilə təmin etmək üçün əlimizdən gələni edirik".

**"Nikitin" kolxozunun sədri söyləyib ki, bu il quraqlıq olduğu üçün vəziyyət daha pis olub:** "Gün ərzində kəndə 4 maşınla su gətiririk ki, suvarmada istifadə edək, camaata da verək. Bulaqlardan pulsuz istifadə etsək də, çox vaxt suyu pulla alırıq".

❑ EMİL




# QMİ-dən ehsan süfrəsi açıqlaması

## "Hüzr sahibi istəyər kabab verər, istəyər plov verər"

**"İnsanlara deyə bilmərik ki, yas mərasimində onu vermə, bunu vermə. Menyünün tərtibi hüzr sahiblərinin öz seçimidir. İstəyər kabab verər, istəyər plov verər".**

Bunu modern.az-a Qafqaz Müsəlmanları İdarəsi (QMİ) "Təzəpir" məscid kompleksində yerləşən hüzr məclislərinin keçirildiyi məkandan bildiriblər. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə yas mərasimlərində məhdudiyyətlərin qoyulmasına bundan artıq şərh verilməyib.

QMİ-nin "Təzəpir" məscid-kompleksində təklif olunan xidmət və qiymətlərlə bağlı mediada yetərincə açıqlamaları olub. Ümumən kompleksdə 6 mərasim zalı var. Zallardan hər birində eyni vaxtda 250 nəfərə xidmət göstərilə bilər.

Bundan başqa, 300 nəfərlik zal da fəaliyyət göstərir. İddialara görə, bir nəfərə xidmət göstərməyin qiyməti 13-15 manatdan başlayır. Şadlıq saraylarında olduğu kimi burada da bahalı menyü sifariş vermək mümkündür.

Məsələn, bəzən yas mərasimlərində toyuq və ya balıq ləvəngisi sifariş edən hüzr sahibləri də olur. Bu zaman bir nəfərlik stul 20-25 manata gəlib çıxır. Mərasim (13-15 manatlıq menyü üçün) çay süfrəsi açılır. Çay süfrəsinə isə çay, limon, ləbləbi, marmelad və qənd daxildir. Yemək süfrəsinə isə üstü qaralı plov, göyərti, meyvə və s. daxildir.

Ehsan mərasimlərində gündüz saat 14:00-dək qadınlar, o saatdan sonra isə kişilər iştirak edirlər.

Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurası və ayrı-ayrı ruhanilər daim ehsan süfrələrindəki ifratçılıqla bağlı iradlar bildiriblər. Lakin buna nail olmaq mümkün olmayıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsündən sonra buna nail olub-olunmayacağı isə müəmmalıdır. Çünki ifratçılığa çağırış edən QMİ özü ilk növbədə öz "siyasətində" düzəlişlər edib cəmiyyətə nümunə olmalıdır.

# YENİ MÜSAVAT

## Son səhifə

N 213 (5922) 26 avqust 2014




## Zövq üçün meşəni yandırdı

Amerikada yaşayan Sadie Johnson adlı qadın hər kəsi şoka salıb. 23 yaşlı qadın zövq üçün meşə yandırdığı üçün həbs edilib. Ölkə mediasında yayılan məlumatlara görə, gənc qadın yanğın söndürən dostlarının darıxdığını düşündüyü üçün meşədə yanğın törətməyə qərar verib. O, maşını ilə Varm Springs Indian Reservation adlı bölgəyə gələrək orada bir neçə fişəng partladıb. Fişənglərin təsirindən meşədəki kiçik kollar və ağaclar yanmağa başlayıb. Çox keçmədən meşədə böyük bir yanğın çıxıb. Yanğınsöndürənlərin uzun müddətli çalışmalarından sonra meşəlik ərazidəki alovu söndürmək mümkün olub. 20 min hektarlıq meşəlik ərazini yandıran qadın nəzarətə götürülüb. Daha sonra isə facebook sosial şəbəkəsindəki hesabında "yanğınımı bəyəndinizmi" deyə status yazıb. Bundan sonra isə o, peşman olduğunu və bu qədər böyük ərazinin yanacağını düşünmədiyini deyib. Həbs edilən gənc qadından 8 milyon dollarlıq zərəri ödəməsi tələb edilir.



## Məşhur tısbağa 60 yaşında öldü

Dünyanın ən çox rəsmi çəkilən heyvanı olaraq tanınan "Misyoner Pepe" ləqəbli Galapagos tısbağası təbii səbəblərə görə ölüb. 60 yaşlı tısbağa Galapagos Milli Parkında saxlanılırdı. 1967-ci ildən bəri qorunan tısbağa "Misyoner" ləqəbi ilə tanınırdı. Normalda, yeni təbiətdə 200 ildən çox yaşaya bilən bu tısbağalar çox kökəldikləri və daxili orqanları sıradan çıxdığı üçün tez də ölə bilirlər.

# Dünyanın ən incə telefonu

Çinin "Gionee" firması dünyanın ən incə ağıllı telefonunu tanıtmağa başlayıb. "Gionee" firması bir müddət əvvəl 5,5 mm qalınlığında "Elife S5,5" modelini satışa çıxarmışdı. Bugünlərdə isə həmin firma daha nazik bir telefon istehsal edəcəyini açıqlayıb. 2007-ci ildə "Motorola V8" 11,9 mm, 2010-cu ildə iPhone 4 9,3 mm, 2011-ci ildə "Moto XT910" markalı telefon 7,1 mm qalınlığında çıxmışdı. "Elife S5,5" markası 5,5 mm qalınlığında çıxaraq rekord qırmışdı. "Gionee" firmasının yeni telefonunun 5 mm olması gözlənilir. Çinli şirkətin yeni telefona necə batareya yerləşdirəcəyi isə maraqlıdır.



## Qaralmazdan öncə yerkökü yeyin

Yay artıq başa çatır. Yayın son günlərindən istifadə edərək dərisini daha da qaraltmaq istəyənlər günün çox hissəsini çimərliklərdə keçirməyə çalışırlar. Amma çoxları gözəlləşmək üçün dərilərinə nə qədər ziyan vurduqlarının fərqində belə deyillər. Gün işığı ilə birbaşa təmas dəri hüceyrələrini öldürdürür, kollajen parçalanmasına, nəticədə dərinin ləkələnməsinə, elastikliyin itirilməsinə, qırışların artmasına və erkən yaşlanmaya səbəb olur. Bundan əlavə, üzmək üçün hovuza üz tutanlar bilməlidir ki, sudakı xlor dərinin quruluğunu artırır. Dərinin itirdiyi nəmi bərpa etmək üçün əlavə vasitələrdən də istifadə etmək zəruridir. Məsələn, gün kremləri, nəmləndirici kremlər və s. Xüsusilə 35 yaşdan sonra mezoterapiyalar dəri üçün faydalıdır. Bol-bol tərəvəz, meyvə, zeytunyağı, paxlalılar, pendir, balıq yeyənlərdə günəşlə bağlı dəri problemlərinə daha az rast gəlindiyi bəlli olub.

Bədəninizin eyni şəkildə qaralması üçün sabit uzanmayın. 15 dəqiqədən bir istiqamətinizi dəyişin. Gün kremlərindən mütləq istifadə edin. Günün çox qızmar saatlarında günəş şüaları altında qalmayın.

Qaralmağa başlamadan 15 gün öncə yerkökü yeyilməyə başlansa daha qalıcı qaralma əldə etmək olar.

İlk günlərdə gün altında 20 dəqiqədən çox qalmayın.

Kremləri günə çıxmadan azı yarım saat öncə sürtün.

Günəş vannası qəbul edərkən üzünüzü və başınızı şlyapa, gün eynəyi ilə qoruyun.





## 10 senti 2 milyona çevirdi

1938-ci ilin iyun ayında Amerikada Action Comics tərəfindən ilk dəfə xalqa təqdim edilən, sinəsində "S" hərfi və çiynindəki qırmızı örtüyü ilə dünyada məşhurlaşan şəxsin şəkli olan "Superman" jurnalının 10 sentlik ilk sayı 76 il sonra 2 milyon dollara satılıb. Jurnalın dəyərini başa düşən amerikalı kolleksiyaçı tanımadığı bir adamdan aldığı jurnalın ilk sayını rekord qiymətə satıb. "eBay" internet satış mağazasında satışa çıxarılan jurnala 3 dəqiqə ərzində 1 milyon dollar qiymət verilib. 10 gün sonra jurnal 2 milyon dollara satılıb. Darren Adams adlı kolleksiyaçı əldə etdiyi pulun bir hissəsini xeyriyyə məqsədi ilə istifadə edəcəyini deyib.




**QOÇ** - Hər hansı riskli sövdələşmələrə, o cümlədən pulla bağlı müzakirələrə ciddi yanaşmayın. Əsas diqqəti sağlıq durumuna və münasibətlərə yönəldin. Səhər saatlarında səfərə çıxmaq olar.

**BUĞA** - Cəfəng işlərə aludə olmasanız, bu təqvimi tamamilə öz xeyrinizə dəyişə biləcəksiniz. Bu istiqamətdə əsas uğur maliyyə məsələlərində mümkündür və bütün hallarda təşəbbüskarlıq sizdə olmalıdır.

**ƏKİZLƏR** - Ümumi ovqatınızın yüksək olacağını bildirən Göy qübbəsi bu günü zəngin keçirməyinizə şərait yaradacaq. Belə məqamlarda çoxdan görmədiyiniz yaxınlarınızı da ziyarət etməyə dəyər.

**XƏRÇƏNG** - İş-gücü bir tərəfə atın. Onsuz da neçə illərdir ora-bura qaçmaqla əsaslı dönüş yarada bilməmisiniz. Heç olmasa, bu təqvimi mənəvi rahatlığa, insanlarla ünsiyyətə həsr edin.

**ŞİR** - Daxili dünyanızı anlayan insanlarla bir araya gəlin ki, ümumi süstlüyünüz ərisin. Çünki indi sizə daha çox mənəvi rahatlıq lazımdır. Şəxsi büdcənizə mümkün qədər qənaət edin.

**QIZ** - Bəzən səbəbsiz olan daxili gərginliyinizi aradan qaldırmaq istəyirsinizsə, qarşılıqlı münasibətlərinizi tənzimləyin. Bunu bacarsanız, nahardan sonra sürprizləriniz olacaq.

**TƏRƏZİ** - Səhər saatlarında gözlənilən gərginliyi dəf etməyi bacarsanız, sonrakı müddətdə hər hansı nigarançılıq olmayacaq. Məhəbbət müstəvisində yaranmış boşluqları doldurun.

**ƏQRƏB** - Bütün vaxtınızı istirahətə həsr edin. Çünki fəaliyyətlə bağlı hansısa yenilik gözlənilmir. Ulduzlar əsasən qarşılıqlı münasibətlərə və qohumluq əlaqələrinə fikir verməyi məsləhət görür.

**OXATAN** - Yola çıxmaq fikriniz varsa, tərəddüd etməyin. Çünki bu gün rastlaşdığınız insanlardan xoş əhval alacağınız mümkündür. Pulu ilahiləşdirməyin. Çünki İlahi əlçatmaz yerdə durur.

**OĞLAQ** - İqlimin bir qədər mülayimləşməsi sizə əlavə enerji verməkdədir. Odur ki, bu vaxta qədər öhdəsindən gələ bilmədiyiniz planları sürətləndirməlisiniz. Dəvətləri qəbul edin.

**SUTÖKƏN** - Ulduzların düzümü yalnız maliyyə məsələlərində uğurlar vəd edir. Qalan sahələrdə isə ən yaxşı halda neytrallıqla üzləşəcəksiniz. Saat 14-18 arası sağlıq durumunuzu diqqətdə saxlayın.

**BALIQLAR** - Ulduzlar kin-kidurəti bir tərəfə atıb barışıq prosesinə qoşulmağınızı tələb edir. Ona görə də bu gündən deyilən istiqamətdə cəfəngçiliyə yol verməyiniz lazım olacaq... 

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Parisi evsizlər tanıdacaq



Turizm və sosial problemlər sahəsində fəaliyyət göstərən "Alternative Uraine" adlı fransız şirkətinin ötən il başlatdığı proje Parisdə turistlərin diqqət mərkəzindədir. Proje çərçivəsində turistləri Paris küçələrini ən yaxşı tanıdan evsizlər gəzdirəcəklər. Paris küçələrində yaşayan 39 yaşlı Voncent Rouyer Fransanın tarixi və gəzməli yerlərini turistlərə tanıdacağı üçün özünü xoşbəxt hiss etdiyini deyib.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565